# FINCA AZƏRBAYCAN MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

31 dekabr 2013-cü il tarixinə bitən il üzrə
**Maliyyə hesabatları**

# FINCA AZƏRBAYCAN MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2013-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT | 1 |
| MÜSTƏQİL AUDİTORUN RƏYİ | 2 |
| 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Məcmu gəlirlər haqqında hesabat | 3 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 5 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 6-7 |
| Maliyyə hesabatlarına qeydlər | 8-49 |

# FINCA AZƏRBAYCAN MƏHDUD MƏSULİYYƏTLİ CƏMIYYƏTİ
# BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT

Rəhbərlik FINCA Azərbaycan Məhdud Məsuliyyətli Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının (bundan sonra "Təşkilat") 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyat nəticələri, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq düzgün əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsinə və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Təşkilatın maliyyə hesabatları və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-ın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Təşkilatın faziləsizlik prinisipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Təşkilat daxilində sağlam və effektiv daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılmasına;
- Təşkilatın əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, maliyyə vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Təşkilatın maliyyə hesabatlarının MHBS-ə uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Təşkilatın aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə; və
- Fırıldaqçılıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Təşkilatın 31 dekabr 2013-cü il tarixinə bitən il üzrə maliyyə hesabatlarının buraxılması rəhbərlik tərəfindən 07 may 2014-cü il tarixində təsdiqlənmişdir.

İdarə heyəti adından:

Timothy Tarrant
Baş İcraçı direktor

Bakı, Azərbaycan Respublikası
7 may 2014-cü il

Marco Leonardo de Natale
Maliyyə direktoru

Bakı, Azərbaycan Respublikası
7 may 2014-cü il

Deloitte.

"Deloitte & Touche" MMC
Nizami küç., 96
8-ci mərtəbə
Landmark III,
Bakı, AZ1010,
Azərbaycan
Tel: +994 (12) 598 2970
Fax: +994 (12) 598 2975
www.deloitte.az

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

FINCA Azərbaycan Məhdud Məsuliyyətli Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının Səhmdarlarına və İdarə Heyətinə:

Biz FINCA Məhdud Məsuliyyətli Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının (bundan sonra "Təşkilat") 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu qaydalarının xülasəsi və digər izahlı məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

### Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti

Rəhbərlik hazırki maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq hazırlanması və düzgün təqdimatına, habelə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin müşahidə olunmadığı maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

### Auditorun məsuliyyəti

Bizim vəzifəmiz apardığımız audit əsasında hazırkı maliyyə hesabatlarına dair rəy bildirməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına müvafiq olaraq həyata keçirdik. Bu standartlar bizdən etik tələblərə riayət etməyimizi, eləcə də maliyyə hesabatlarında mühüm təhriflərin olmadığına kifayət tərzdə əminliyin əldə edilməsi üçün auditi planlaşdırmağımızı və həyata keçirməyimizi tələb edir.

Audit zamanı maliyyə hesabatlarındakı məbləğ və açıqlamalara dair audit sübutlarının əldə olunması üzrə prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mülahizəsi, o cümlədən maliyyə hesabatlarında saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhrif risklərinin qiymətləndirilməsindən asılı olaraq seçilir. Belə risklərin qiymətləndirilməsini həyata keçirərkən auditor şəraitə uyğun olaraq audit prosedurlarının planlaşdırılması məqsədilə müəssisənin daxili nəzarət sistemini, həmin sistemin effektivliyi barədə rəy bildirmək üçün deyil, müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi ilə əlaqədar olaraq nəzərdən keçirir. Auditə, həmçinin rəhbərlik tərəfindən tətbiq edilən mühasibat uçotu qaydalarının müvafiqliyinin və irəli sürülmüş mühasibat təxminlərinin əsaslı olduğunun qiymətləndirilməsi, habelə maliyyə hesabatlarının ümumi təqdimatının təhlili daxildir.

Hesab edirik ki, audit rəyimizi bildirmək üçün əsas verən yetərli və uyğun audit sübutu əldə etmişik.

### Rəy

Fikrimizcə bu maliyyə hesabatları Təşkilatın 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

Deloitte & Touche.

7 may 2014-cü il
Bakı, Azərbaycan Respublikası

Deloitte adı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının qanunvericiliyi əsasında qeydiyyata alınmış və məsuliyyəti onun iştirakçıları tərəfindən verilən təminatlarla məhdudlaşan Deloitte Touche Tohmatsu Limited Təşkilatına və onun üzv Təşkilatlarından ibarət olan şəbəkəyə aid ayrı və müstəqil hüquqi şəxslərdən birinə və ya hər hansına məxsusdur. Deloitte Touche Tohmatsu və ona üzv Təşkilatların hüquqi strukturunun ətraflı təsviri üçün www.deloitte.com/about internet səhifəsinə müraciət edin. "Deloitte MDB"-nin hüquqi forması haqqında məlumat almaq üçün isə http://www.deloitte.com/ru/about internet səhifəsinə daxil ola bilərsiniz.
© 2014 "Deloitte & Touche MMC". Bütün hüquqlar qorunur.

# FINCA AZƏRBAYCAN MƏHDUD MƏSULİYYƏTLİ CƏMIYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏCMU GƏLIRLƏR HAQQINDA HESABAT
***(Min Azərbaycan manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2013-cü il tarixinə bitən il | 31 dekabr 2012-ci il tarixinə bitən il |
|---|---|---|---|
| Faiz gəliri | 4 | 52,001 | 42,742 |
| Faiz xərci | 4 | (11,085) | (8,412) |
| FAİZ HESABLANAN AKTIVLƏRİN DƏYƏRSİZLƏŞMƏ ZƏRƏRI ÜÇÜN EHTİYATDAN ƏVVƏL XALİS FAİZ GƏLİRİ | | 40,916 | 34,330 |
| Faiz hesablanan aktivlərin dəyərsizləşməsi üzrə zərər üçün ehtiyat | 5 | (60) | (406) |
| **XALİS FAİZ GƏLİRİ** | | **40,856** | **33,924** |
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd edilən maliyyə aktivləri və ya öhdəlikləri üzrə xalis zərər | 6 | (910) | (79) |
| Xarici valyuta əməliyyatları üzrə xalis mənfəət/zərər | 7 | (35) | (68) |
| Əsas vəsaitərin silinməsindən xalis mənfəət/zərər | | (39) | - |
| Digər gəlirlər | | 3 | 203 |
| XALİS QEYRİ-FAİZ GƏLİRİ | | (981) | 56 |
| **ƏMƏLİYYAT GƏLİRİ** | | **39,875** | **33,980** |
| İnzibati və digər əməliyyat xərcləri | 8, 21 | (30,035) | (22,481) |
| MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL MƏNFƏƏT | | 9,840 | 11,499 |
| Mənfəət vergisi xərci | 9 | (2,372) | (2,450) |
| **DÖVR ÜZRƏ XALİS MƏNFƏƏT** | | **7,468** | **9,049** |
| **Digər məcmu (zərərlər)/gəlirlər** | | | |
| Xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklərin təsiri | | - | (239) |
| **İl üzrə digər məcmu zərər** | | **-** | **(239)** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **7,468** | **8,810** |

İdarə Heyəti adından:

Timothy Tarrant
Baş icraçı direktor

Bakı, Azərbaycan Respublikası
7 may 2014-cü il

Marco Leonardo de Natale
Maliyyə direktoru

Bakı, Azərbaycan Respublikası
7 may 2014-cü il

8-49-cu səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# FINCA AZƏRBAYCAN MƏHDUD MƏSULİYYƏTLİ CƏMIYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
*(Min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|---|
| **AKTIVLƏR:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 13,495 | 7,224 |
| Banklardakı müddətli depozitlər | 11 | 3,959 | 2,634 |
| Müştərilərə verilmiş kreditlər | 12 | 160,830 | 116,561 |
| Cari mənfəət vergisi aktivləri | | 51 | - |
| Əmlak və avadanlıq | 13 | 1,315 | 1,345 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 9 | 1,337 | 1,132 |
| Qeyri-maddi aktivlər | 13 | 520 | 1,212 |
| Digər aktivlər | 14,21 | 982 | 673 |
| Cəmi aktivlər | | 182,489 | 130,781 |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri | 15 | 990 | 79 |
| Digər borc alınmış vəsaitlər | 16 | 138,587 | 95,370 |
| Cari mənfəət vergisi öhdəlikləri | | - | 440 |
| Digər öhdəliklər | 17,21 | 3,798 | 3,361 |
| Subordinasiyalı borc | 18 | 5,577 | 5,572 |
| Cəmi öhdəliklər | | 148,952 | 104,822 |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | 19 | 4 | 4 |
| Əlavə ödənilmiş kapital | 19 | 2,902 | - |
| Bölüşdürülməmiş mənfəət | | 30,631 | 25,955 |
| Cəmi kapital | | 33,537 | 25,959 |
| CƏMI ÖHDƏLİKLƏR VƏ KAPİTAL | | 182,489 | 130,781 |

İdarə heyəti adından:

Timothy Tarrant
Baş icraçı direktor

Bakı, Azərbaycan Respublikası
7 may 2014-cü il

Marco Leonardo de Natale
Maliyyə direktoru

Bakı, Azərbaycan Respublikası
7 may 2014-cü il

8-49-cu səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# FINCA AZƏRBAYCAN MƏHDUD MƏSULİYYƏTLİ CƏMIYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | Qeydlər | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Məzənnə fərqləri | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2012-ci il** | 19 | **4** | **-** | **21,659** | **(239)** | **21,424** |
| İl üzrə mənfəət | | - | - | 9,049 | - | 9,049 |
| Elan olunmuş dividendlər | | - | - | (4,753) | - | (4,753) |
| Məzənnə fərqləri | | - | - | - | 239 | 239 |
| **31 dekabr 2012-ci il** | 19 | **4** | **-** | **25,955** | **-** | **25,959** |
| İl üzrə mənfəət | | - | - | 7,468 | - | 7,468 |
| Elan olunmuş dividendlər | 19 | - | - | (2,792) | - | (2,792) |
| Əlavə ödənilmiş kapital | 19 | | 2,902 | - | - | 2,902 |
| **31 dekabr 2013-cü il** | 19 | 4 | 2,902 | 30,631 | - | 33,537 |

İdarə heyəti adından:

Timothy Tarrant
Baş icraçı direktor

Bakı, Azərbaycan Respublikası
7 may 2014-cü il

Marco Leonardo de Natale
Maliyyə direktoru

Bakı, Azərbaycan Respublikası
7 may 2014-cü il

8-49-cu səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# FINCA AZƏRBAYCAN MƏHDUD MƏSULİYYƏTLİ CƏMIYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## 31 DEKABR 2013-CÜ İL TARİXINƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2013-cü il tarixində bitən il | 31 dekabr 2012-ci il tarixində bitən il |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| İl üzrə mənfəət | | 7,468 | 9,049 |
| Qeyri-pul maddələri üzrə düzəlişlər: | | | |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyat (bərpa dəyəri çıxılmaqla) | 5 | 60 | 406 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin silinməsindən zərər | | 39 | 11 |
| Xarici valyuta əməliyyatları üzrə xalis zərər/gəlir | 8 | 35 | (68) |
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd edilən maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərində xalis dəyişiklik | 7 | 910 | 79 |
| Hesablanmış faizlərdə xalis dəyişiklik | | (85) | (218) |
| Köhnəlmə və amortizasiya | 9 | 1,213 | 1,055 |
| Mənfəət və ya zərərdə tanınmış mənfəət vergisi xərci | 10 | 2,372 | 2,450 |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişiklikdən əvvəl əməliyyat fəaliyyətlərindən əldə edilən pul vəsaitləri | | 12,012 | 12,764 |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər | | | |
| Əməliyyat aktivlərində artım: | | | |
| Banklardakı müddətli depozitlər | | (1,531) | - |
| Müştərilərə verilmiş kreditlər | | (43,511) | (26,996) |
| Digər aktivlər | | (516) | (130) |
| Əməliyyat öhdəliklərində artım | | | |
| Digər öhdəliklər | | 441 | 1,401 |
| Vergitutmadan əvvəl əməliyyat fəaliyyəti üzrə istifadə edilən pul vəsaitləri | | (33,105) | (12,961) |
| Ödənilmiş mənfəət vergisi | | (3,068) | (3,305) |
| Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitlərin çıxışı | | (36,173) | (16,266) |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak və avadanlıq üçün ödənişlər | | (471) | (900) |
| Əmlak və avadanlığın və qeyri-maddi aktivlərin satılmasından daxilolmalar | | 2 | - |
| Qeyri-maddi aktivlər üçün ödənişlər | | (75) | (30) |
| İnvestisiya fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitlərin çıxışı | | (544) | (930) |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Adi səhmlər üzrə ödənilmiş dividendlər | | (2,792) | (4,753) |
| Əlavə ödənilmiş kapital | | 2,902 | - |
| Digər borc alınmış vəsaitlər üzrə daxilolmalar | | 83,455 | 47,797 |
| Digər borc alınmış vəsaitlərin ödənilməsi | | (40,577) | (23,067) |
| Maliyyə fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri | | 42,988 | 19,977 |
| Xarici valyutada saxlanılan pul vəsaitlərinin qalıqlarına mübadilə məzənnələrindəki dəyişikliklərin təsiri | | - | 296 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım/azalma | | 6,271 | 2,781 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin əvvəlində | 10 | 7,224 | 4,167 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin sonunda | 10 | 13,495 | 7,244 |

# FINCA AZƏRBAYCAN MƏHDUD MƏSULİYYƏTLİ CƏMIYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT (DAVAMI)

*(Min Azərbaycan manatı ilə)*

31 dekabr 2013-cü il tarixinə bitən il ərzində Təşkilat tərəfindən ödənilmiş və alınmış faiz müvafiq olaraq 10,197 min AZN və 51,548 min AZN təşkil etmişdir.

31 dekabr 2012-ci il tarixinə bitən il ərzində Təşkilat tərəfindən ödənilmiş və alınmış faiz müvafiq olaraq 7,979 min AZN və 42,265 min AZN təşkil etmişdir.

İdarə heyəti tərəfindən:

| | |
|---|---|
| Timothy Tarrant<br>Baş icraçı direktor | Marco Leonardo de Natale<br>Maliyyə direktoru |
| Bakı, Azərbaycan Respublikası<br>7 may 2014-cü il | Bakı, Azərbaycan Respublikası<br>7 may 2014-cü il |

8-49-cu səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. TƏŞKİLAT HAQQINDA

FINCA Azərbaycan Məhdud Məsuliyyətli Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı 1998-ci ildə Azərbaycan Respublikasında yaradılmışdır. 19 noyabr 1998-ci illədək o, FINCA International Inc. şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi kimi qeydiyyatdan keçmişdir. 19 noyabr 1999-cu il tarixdə o, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində yenidən qeydiyyatdan keçmiş və hüquqi şəxs statusunu almışdır. Təşkilat Azərbaycan Respublikası ərazisində kreditlərin verilməsi fəaliyyəti ilə yalnız hüquqi şəxslərin məşğul ola bilməsi haqda Azərbaycan Respublikası Mərkəzi Bankının qaydalarını yerinə yetirmək məqsədilə yenidən qeydiyyatdan keçmişdir. Yeni müəssisə kreditlərin verilməsi fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankından 29 fevral 2000-ci il tarixli lisenziya almışdır.

Təşkilatın hüquqi ünvanı aşağıdakı kimidir: Cəfər Cabbarlı 44, Bakı 1065, Azərbaycan.

31 dekabr 2013 və 2012-ci il tarixlərinə Təşkilatın Azərbaycan Respublikasında fəaliyyət göstərən müvafiq olaraq 65 və 29 filialı olmuşdur.

Təşkilatın qeydiyyatdan keçmiş ofisi Hollandiyada yerləşən FINCA Microfinance Cöperatief U.A Təşkilatının törəmə müəssisəsidir.

Təşkilatın əsas nəzarətçi tərəfi - FINCA International, Inc. - Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində təsis olunmuş və Birləşmiş Ştatların 1986-cı ilə tarixli düzəliş edilmiş Daxili Gəlir Məcəlləsinin 501 (c) (3)-cü hissəsinə əsasən Birləşmiş Ştatların Daxili Gəlir Xidməti tərəfindən vergidən azad ictimai xeyriyyə təşkilatı kimi müəyyən edilməsi barədə məktub almış qeyri-kommersiya təşkilatıdır.

Onun törəmə müəssisələri FINCA International, Inc. ilə üzvlük müqavilələri əsasənda fəaliyyət göstərən ayrıca hüquqi şəxslərdir.

Bu maliyyə hesabatlarının buraxılması 7 may 2014-cü il tarixdə İdarə heyəti tərəfindən təsdiqlənmişdir.

## 2. ƏSAS MÜHASİBAT UÇOTU QAYDALARI

Uyğunluq haqqında bəyanat

Bu maliyyə hesabatları Mühasibat Uçotu üzrə Beynəlxalq Standartları Şurası (“MUBSŞ”) tərəfindən buraxılmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhi Komitəsi (“BMHŞK”) tərəfindən verilmiş şərhlərə müvafiq olaraq hazırlanmışdır.

Təqdimat meyarının digər əsasları

Bu maliyyə hesabatları Təşkilatın gələcəkdə fasiləsizlik prinsipinə uyğun olaraq fəaliyyətini davam etdirə biləcəyi haqqında fərziyyələr əsasında hazırlanmışdır. 31 dekabr 2013 və 2012-ci il tarixlərinə bitən illər üçün əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitləri neqativ olmuşdur, lakin biz bunu problem hesab etmirik, çünki, bu mikro maliyyələşdirmə təşkilatlarına xas olan bir haldır. Rəhbərlik və səhmdarlar gələcəkdə Təşkilatı inkişaf etdirmək fikrindədir.

Bu maliyyə hesabatları başqa qeydlər olmazsa, Min AZN ilə təqdim olunmuşdur.

Bu maliyyə hesabatları aşağıda göstərilən mühasibat uçotu qaydalarında izah edildiyi kimi yenidən qiymətləndirilən və ya ədalətli dəyərlə ölçülmüş müəyyən maliyyə alətləri istisna olmaqla, ilkin dəyər əsasında tərtib edilmişdir. İlkin dəyər adətən aktivin mübadilə edilə biləcəyi ədalətli dəyərə əsaslanır.

Təşkilat maliyyə vəziyyəti haqqında hesabatını likvidlik ardıcıllığı ilə geniş şəkildə təqdim edir. Maliyyə vəziyyəti haqqında hesabat tarixindən (cari) sonra 12 ay ərzində və ya maliyyə vəziyyəti hesabat tarixindən sonra 12 aydan çox müddət (uzunmüddətli) ərzində alınacaq və ya ödəniləcək məbləğlər üzrə təhlil 24 saylı Qeyddə göstərilir.

**Əməliyyat valyutası**

Təşkilatın maliyyə hesabatlarına daxil edilən maddələr Təşkilatın fəaliyyət göstərdiyi əsas iqtisadi mühitdəki valyutanı ("əməliyyat valyutası") istifadə etməklə ölçülür. Təşkilatın əməliyyat valyutası AZN-dir. Təşkilatın maliyyə hesabatlarının təqdim olunduğu valyuta AZN-dir. Başqa qeydlər olmazsa bütün maliyyə məlumatları yaxın minlik ədədinə qədər yuvarlaqlaşdırılmışdır. Azərbaycan Respublikası Mərkəz Bankının qaydalarına uyğun olaraq bu maliyyə hesabatlarında yerli valyuta təqdimat valyutası kimi istifadə olunur.

**Əvəzləşdirmə**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız uçotda tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanuni hüquq mövcud olduqda və xalis məbləğ əsasında hesablaşmalar aparılması, yaxud da eyni vaxtda aktivlərin satılması və öhdəliyin yerinə yetirilməsi nəzərdə tutulduqda bir-birinə qarşı əvəzləşdirilir, xalis məbləği isə maliyyə vəziyyəti haqqında hesabatda bildirilir. Hər hansı mühasibat uçotu standartı və ya şərhi ilə tələb olunmayana və ya icazə verilməyənədək və Təşkilatın mühasibat uçotu qaydalarında konkret göstərilməyənə qədər gəlir və xərc mənfəət və ya zərər haqqında hesabatda bir birinə qarşı əvəzləşdirilmir.

Əsas mühasibat uçotu qaydaları aşağıda açıqlanır.

**Faiz gəlirinin və xərcinin tanınması**

Maliyyə aktivi üzrə faiz gəliri Təşkilata iqtisadi mənfəətin daxil olması ehtimalı olduqda və gəlir məbləğinin etibarlı qiymətləndirilməsi mümkün olduqda tanınır. Faiz gəliri və xərci effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə uçot əsasında tanınır. Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin (yaxud maliyyə aktivləri və ya öhdəlikləri qrupunun) amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəliri yaxud faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur.

Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış nağd pul daxilolmalarını (o cümlədən, effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən məntəqələrdə ödənilmiş yaxud alınmış bütün haqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

Maliyyə aktivi, yaxud analoji maliyyə aktivləri qrupu ehtimal olunan zərərin baş verməsi nəticəsində hesabdan (qismən bir hissəsi) silinərsə, faiz gəliri bundan sonra dəyərsizləşmə üzrə zərərin ölçülərini müəyyən etmək məqsədilə gələcək pul vəsaitləri hərəkətinin diskontlaşdırılması üçün tətbiq edilən faiz dərəcələrindən istifadə olunmaqla uçotda tanınır.

Ədalətli dəyərlə qeyd edilən aktivlər üzrə qazanılmış faizlər faiz gəliri hissəsində təsnif edilir.

**Maliyyə aktivləri**

Təşkilatın maliyyə aktivləri aşağıdakı xüsusi kateqoriyalar üzrə təsnifləşdirilir: "Mənfəət və ya zərər üzrə ədalətli dəyərlə tanınan maliyyə aktivləri, "ödəniş müddətinə qədər saxlanılan" investisiyalar, "satıla bilən" maliyyə aktivləri və "kreditlər və debitor borcları". Təsnifləşdirmə maliyyə alətinin növündən və məqsədindən asılıdır və ilkin tanınma zamanı müəyyən olunur.

***Kreditlər və debitor borcları***

Sabit və ya müəyyən oluna bilən ödənişli və fəal bazarda qiyməti bəyan edilməmiş ticarət debitor borcları, kreditlər və digər debitor borcları "Kreditlər və debitor borcları" kimi təsnif edilir. Kreditlər və debitor borcları effektiv faiz dərəcəsi metodundan istifadə etməklə dəyərsizləşmə çıxıldıqdan sonra amortizasiya olunmuş dəyərdə ölçülür. Faiz gəliri, faizin tanınması cüzi əhəmiyyət kəsb etdiyi qısamüddətli kreditlər istisna edilməklə, effektiv faiz dərəcəsini tətbiq etməklə uçotda tanınır.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

Maliyyə aktivləri dəyərsizləşmənin müəyyən edilməsi məqsədilə hər hesabat dövrünün sonunda qiymətləndirilir. Maliyyə aktivinin ilkin tanınmasından sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində investisiyalar üzrə gələcək pul daxilolmalarının təsirə məruz qaldığını isbat edən obyektiv sübut yaranarsa, maliyyə aktivləri dəyərsizləşmiş hesab edilir.

Maliyyə aktivləri üçün dəyərsizləşməni göstərən amillərə aşağıdakılar daxil ola bilər:

- Emitent və ya qarşı tərəfinin əhəmiyyətli maliyyə çətinlikləri; yaxud
- Əsas borc məbləği və ya faizlərin vaxtında ödənilməməsi və ya ödəmə öhdəliyinin yerinə yetirilməməsi halları kimi müqavilə şərtlərinin pozulması;
- Borcalanın müflisliyə uğrayacağı və ya maliyyə strukturunun yenidən təşkil edəcəyi güman olunduqda; yaxud da
- Maliyyə çətinlikləri səbəbindən qeyd olunan maliyyə aktivinin təqdim edildiyi fəal bazar məkanlarının yox olması.

Kreditlər və debitor borcları kimi müəyyən maliyyə aktivi kateqoriyaları halında, ayrı-ayrılıqda dəyərsizləşməyəcəyi müəyyən edilən aktivlər əlavə olaraq, dəyərsizləşmənin müəyyən olunması məqsədilə kollektiv şəkildə təhlil edilir. Kreditlər və debitor borcları portfelinin dəyərsizləşdiyini göstərən obyektiv sübutlara Təşkilatın ödənişlərin yığılması ilə bağlı keçmiş təcrübəsi, portfeldə vaxtı gecikdirilən ödəmələrin sayının artması, eləcə də borc öhdəliyinin yerinə yetirilməməsi ilə əlaqələndirilən yerli və ya ölkənin iqtisadi şəraitlərdə müşahidə olunan dəyişikliklər aid edilə bilər.

Amortizasiya olunmuş dəyərlə qeyd edilən maliyyə aktivləri halında, uçotda tanınmış ehtimal olunan dəyərsizləşmə zərərinin məbləği aktivin balans dəyəri ilə maliyyə aktivinin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılmış təxmin edilən gələcək pul vəsaiti hərəkətinin cari dəyəri arasındakı fərqdən ibarətdir.

İlkin dəyəri ilə qeyd edilən maliyyə aktivləri halında isə ehtimal olunan dəyərsizləşmə zərərinin bütün məbləği aktivin balans dəyəri ilə bənzər maliyyə aktivləri üçün tətbiq olunan cari bazar gəlirlilik norması dərəcəsində diskontlaşdırılmış təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri arasındakı fərqlə ölçülür. Belə dəyərsizləşmə zərəri sonrakı dövrlərdə əvəzləşdirilmir.

Maliyyə aktivinin balans dəyəri, belə dəyərin ehtiyatlar hesabına azalmasını nəzərdə tutan kreditlər və debitor borcları halı istisna edilməklə, bütün maliyyə aktivləri üçün birbaşa olaraq ehtimal olunan dəyərsizləşmə zərəri məbləğində azaldılır. Kreditlərin və ya debitor borcların yığılması mümkün olmadıqda, belə məbləğlər ehtiyatlar hesabına qarşı silinir. Əvvəl silinmiş məbləğlərin daha sonra qaytarılması ehtiyatlar hesabına kreditləşdirilir. Ehtiyatlar hesabının balans məbləğindəki dəyişikliklər mənfəət və ya zərər üzrə tanınır.

***Şərtləri təkrar razılaşdırılmış kreditlər***

Mümkün olan hallarda, Təşkilat girova sahib çıxmaq əvəzinə kredit şərtlərinin təkrar razılaşdırılması məqsədini güdür. Bu, ödəniş müddətinin uzadılması və yeni kredit şərtlərinin razılaşdırılmasını nəzərdə tuta bilər. Şərtlər yenidən razılaşdırıldıqda, hər hansı dəyərsizləşmə şərtlərdə dəyişikliklərin edilməsindən əvvəl hesablandığı kimi ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə ölçülür və kredit artıq vaxtı ötmüş hesab edilmir. Rəhbərlik bütün meyarlar üzrə tələblərin yerinə yetirildiyini və gələcək ödənişlərin baş tutmasını təmin etmək məqsədilə şərtləri təkrar razılaşdırılmış kreditləri nəzərdən keçirir. Kreditlər ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanan fərdi və ya birgə dəyərsizləşmə qiymətləndirilməsinin obyekti olmağa davam edir.

***Kreditlərin və avansların silinməsi***

Kreditlər və avanslar yığılması mümkün olmadıqda kreditlər üzrə ehtimal olunan dəyərsizləşmə zərəri üçün ehtiyatlara qarşı hesabdan silinir. Rəhbərlik Təşkilata ödənilməli olan borcların yığılması üçün bütün mümkün vasitələrdən istifadə etdikdən sonra kreditlər və avanslar hesabdan silinir. Əvvəllər hesabdan silinmiş məbləğlərin sonradan bərpa edilməsi ödənişlərin qaytarılması dövründə mənfəət və ya zərər haqqında hesabatda maliyyə aktivlərinin dəyərsizləşməsi məbləğinə qarşı əvəzləşdirilir.

***Maliyyə alətlərinin tanınmasının dayandırılması***

Təşkilat yalnız aktivdən pul daxilolmaları üzrə onun müqavilə hüquqlarının vaxtı bitdikdə yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları digər tərəfə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır. Təşkilat aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları digər tərəfə köçürməzsə və ya özündə saxlamasa və köçürülmüş aktiv üzərində nəzarətini davam etdirərsə, o, aktivdə saxlanılmış payını və bununla əlaqədar ödəyəcəyi məbləğlər müqabilində öhdəliyi uçotda tanıyır. Təşkilat köçürülmüş aktiv üzrə mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli risk və mükafatları özündə saxlayarsa, o, belə aktivi uçotda tanımağa davam edir və aldığı məbləğlər ilə əlaqədar girovu təmin edilmiş borc vəsaitlərini də uçotda tanıyır.

Maliyyə aktivinin tanınması tamamilə dayandırıldığı halda, maliyyə aktivinin balans dəyəri ilə nəzəri olaraq alınmış və alınacaq məbləğlər və digər məcmu gəlirlərdə tanınmış və kapitalda toplanan yığılmış gəlir və zərərlər arasındakı fərq mənfəət və zərərdə tanınır.

Maliyyə aktivinin tanınmasının tamamilə dayandırılması halından başqa digər hallarda (məs., Təşkilat ötürülmüş aktivlərin bir hissəsini almaq hüququnu saxlayırsa), Təşkilat maliyyə aktivinin əvvəl müəyyən edilmiş balans dəyərini maliyyə çətinliyi davam etdiyi müddətdə tanımağa davam etdiyi hissə ilə aktivlərin ötürülməsi tarixində həmin hissələrin nisbi ədalətli dəyərləri əsasında artıq tanınmayan hissə arasında bölüşdürür. Artıq tanınmayan hissəyə aid edilmiş balans dəyəri ilə artıq tanınmayan hissə üzrə alınmış ödəniş məbləği və ona aid edilmiş, digər mənfəət haqqında hesabatda tanınmış hər hansı yığılmış gəlir və ya zərər arasında fərq mənfəət və ya zərər uçotunda tanınır. Digər mənfəət haqqında hesabatda tanınmış yığılmış gəlir və ya zərər tanınması davam edən hissə ilə belə hissələrin ədalətli dəyəri əsasında tanınması artıq dayandırılmış hissə arasında bölüşdürülür.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəlikləri ya mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri, ya da “digər maliyyə öhdəlikləri” kimi təsnif edilir.

***Digər maliyyə öhdəlikləri***

Digər maliyyə öhdəlikləri ilk olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərlə ölçülür.

Digər maliyyə öhdəlikləri sonradan effektiv faiz metodu istifadə edilməklə və faiz xərcləri effektiv gəlir əsasında tanınmaqla amortizasiya olunmuş dəyərlə ölçülür.

Effektiv faiz metodu maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz xərclərinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur. Effektiv faiz dərəcəsi təxmin edilən gələcək nağd pul ödəmələrini (o cümlədən, effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən məntəqələrdə ödənilmiş yaxud alınmış bütün haqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) maliyyə öhdəliyinin güman edilən müddəti, yaxud (məqsədə müvafiq hallarda) daha qısa müddət ərzində ilkin tanınma zamanı xalis balans dəyərinə qədər dəqiqliklə diskontlaşdıran dərəcədir.

***Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması***

Maliyyə öhdəliyinin tanınması yalnız Təşkilat ödəniş öhdəliyini yerinə yetirdikdə, belə öhdəlik ləğv olunduqda yaxud müddəti başa çatdıqda dayandırır. Mövcud maliyyə öhdəliyi tam başqa şərtlərlə eyni kreditorun təqdim etdiyi digər öhdəliklə əvəzlənərsə, yaxud mövcud öhdəliyə əhəmiyyətli düzəlişlər edilərsə, belə əvəzləmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir. Tanınması dayandırılmış maliyyə öhdəliyinin balans dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğlər arasındakı fərq mənfəət və zərər uçotunda tanınır.

**Derivativ (törəmə) maliyyə alətləri**

Təşkilat valyuta mübadiləsi ilə bağlı riskləri tənzimləmək məqsədilə xarici valyuta üzrə müxtəlif derivativ forvard müqavilələri kimi törəmə maliyyə alətlərinə daxil olur.

Derivativlər derivativ müqaviləsinin bağlandığı tarixdə ilkin olaraq uçotda ədalətli dəyərlə tanınır və daha sonra isə hər hesabat dövrünün sonunda onların ədalətli dəyəri ilə yenidən qiymətləndirirlir. onların dövrün sonuna olan ədalətli dəyərinə qarşı təkrar ölçülür. Nəticədə yaranmış gəlir və ya zərər derivativ hecinq aləti kimi təyin olunduqda və qüvvədə olduqda dərhal mənfəət və ya zərər hesabatında tanınır. Bu halda onların mənfəət və ya zərər hesabatında tanınması vaxtı hecinq əlaqələrinin xüsusiyyətindən asılı olur. Derivativlərin ədalətli dəyəri məqbul olduqda onlar aktivlər kimi, mənfi olduqda isə öhdəliklər kimi qeydə alınır. Təşkilat bəzi derivativləri tanınmış aktivlərin və ya öhdəliklərin ədalətli dəyərinin hecinqi kimi və ya təşkilatin öhdəlikləri (ədalətli dəyər hecinqi), yüksək ehtimallı proqnoz əməliyyatlarının hecinqi və ya təşkilat öhdəliklərinin xarici valyuta riskinin hecinqi (pul vəsaitləri hecinqi) və ya xarici əməliyyatlara xalis investisiyaların hecinqi kimi müəyyən edir.

**İcarə**

Lizinqin şərtlərinə əsasən mülkiyyət hüququ üzrə bütün risk və mükafatlar icarəçiyə ötürüldüyü zaman belə lizinq maliyyə lizinqi kimi təsnifləşdirilir. Bütün digər lizinqlər əməliyyat lizinqi kimi təsnifləşdirilir.

**Təşkilat - icarəyə götürən tərəf kimi**

Əməliyyat lizinqi ilə bağlı ödənişlər, lizinq obyekti olan aktiv üzrə iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu müddəti daha uyğun əks etdirən digər bir metodun istifadə edildiyi hallar istisna olmaqla, lizinq müddəti ərzində düzxətli metod əsasında xərc kimi tanınır.

Əməliyyat icarəsi sövdələşməsinin bağlanması üçün icarə stimulları əldə olunduqda belə stimullar öhdəlik kimi tanınır. Stimullar üzrə ümumi mənfəət, lizinq obyekti olan aktiv üzrə iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu müddəti daha uyğun əks etdirən digər bir metodun istifadə edildiyi hallar istisna olmaqla, düz xətt üsulu əsasında icarə haqqı xərclərinin azalması kimi tanınır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri müqavilə öhdəliklərindən azad olmaqla kassadakı nağd vəsaitlərindən, köçürülmüş vəsaitlərdən və banklardakı həqiqi ödəmə müddəti 90 gün və ya ondan az olan cari hesablardan ibarətdir.

**Əmlak və avadanlıq**

Daşınmaz əmlak və avadanlıq yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə göstərilir.

Köhnəlmə düz xətt metodundan istifadə edərək qalıq dəyəri çıxıldıqdan sonra aktivlərin ilkin dəyərini onların faydalı istismar müddəti üzrə silməklə uçotda tanınır. Hesablanmış faydalı istismar müddəti, qalıq dəyərləri və köhnəlmə metodu hesablamalarda hər hansı dəyişikliklərin təsirini gələcək dövrlər üzrə uçota almaqla hər hesabat dövrünün sonunda aşağıdakı illik dərəcələrlə təhlil edilir:

| | |
|---|---|
| İcarədə olan əmlakın təkmilləşdirilməsi | 33% |
| Mebel və ofis avadanlığı | 20-33% |
| Kompüter avadanlığı | 33% |
| Nəqliyyat vasitələri | 20% |
| Digər aktivlər | 20% |
| Qeyri-maddi aktivlər | 20-33% |

Əmlak və avadanlıqların obyekti hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq heç bir iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak və avadanlıq obyektlərinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərərlər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabatında tanınır.

**Qeyri-maddi aktivlər**

***Ayrı-ayrılıqda alınmış qeyri-maddi aktivlər***

Müəyyən istismar müddəti olan ayrı-ayrılıqda alınmış qeyri-maddi aktivlər yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərəri çıxılmaqla ilkin dəyər ilə uçotda qeyd edilir. Amortizasiya aktivin təxmin edilən faydalı istismar müddəti ərzində düz xətt metodundan istifadə etməklə uçotda tanınır. Təxmin edilən faydalı istismar müddəti və köhnəlmə metodu gələcək dövrlər üzrə uçota alınan təxminlərdəki hər hansı dəyişikliklərin təsiri nəzərə alınmaqla hər hesabat dövrünün sonunda təhlil edilir. Ayrılıqda alınmış və qeyri-müəyyən istismar müddətləri olan qeyri-maddi aktivlər yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınır.

***Qeyri-maddi aktivlərin tanınmasının dayandırılması***

Qeyri-maddi aktivlər satılaraq hesabdan silindikdə yaxud onların sonrakı istismarı və ya satılması gələcəkdə iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Qeyri-maddi aktivlərin tanınmasının dayandırılmasından yaranan gəlir və ya zərər, belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunan xalis gəlir məbləği arasındakı fərq kimi ölçülür və aktivin tanınması dayandırıldığı zaman mənfəət və ya zərər haqqında hesabatda tanınır.

**Qudvildən başqa maddi və qeyri-maddi aktivlərinin dəyərsizləşməsi**

Təşkilat maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməyə məruz qalaraq qiymətlərinin düşüb – düşmədiyini müəyyənləşdirmək üçün hər hesabat dövrünün sonunda belə aktivlərin balans dəyərini təhlil edir. Dəyərsizləşmənin baş verdiyinə dəlalət edən hər hansı hal mövcud olarsa, dəyərsizləşmə üzrə zərərin (əgər varsa) həcmini müəyyən etmək üçün aktivin bərpa dəyəri hesablanır. aktivin fərdi hallarda bərpa dəyərini hesablamaq mümkün olmazsa, Təşkilat belə aktivin aid olduğu gəlir gətirən aktivlər qrupunun bərpa dəyərini müəyyən edir. aktivin yerləşdirilməsinə müvafiq və ardıcıllığı gözlənilən əsaslar müəyyən edildiyi hallarda, korporativ aktivlər, həmçinin fərdi gəlir gətirən aktivlər qrupunda yerləşdirilə bilər yaxud, başqa cür, müvafiq qaydada və ardıcıllığı gözlənilməklə yerləşdirilmə əsasları müəyyən edilmiş ən kiçik gəlir gətirən aktivlər qrupunda yer alır.

Qeyri-müəyyən istifadə müddəti olan və istifadə üçün hazır olmayan qeyri-maddi aktivlər ən azı ildə bir dəfə və ya dəyərsizləşmə əlaməti olduqda dəyərsizləşmə üzrə yoxlamadan keçməlidir.

Bərpa dəyəri ədalətli dəyərdən satış və istifadə dəyərlərini çıxıldıqdan sonra alınan daha yüksək məbləğdir. İstismar dəyərini qiymətləndirərkən təxmin edilən gələcək dövrlərin pul axınları pulun vaxt üzrə dəyərinin və gələcək pul axınları ilə bağlı təxminlərə düzəliş edilməmiş aktiv üçün səciyyəvi olan risklərin hazırkı bazar qiymətləndirilməsini özündə əks etdirən vergiyə qədərki diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə qədər diskontlaşdırılır.

aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) bərpa dəyərinin onun balans dəyərindən az olduğu hesablanarsa, belə aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) balans dəyəri bərpa dəyərinə kimi azaldılır. Dəyərsizləşmə zərərinin yenidən qiymətləndirmədən irəli gələn azalma kimi hesab edildiyi hal olaraq müvafiq aktiv uçotda yenidənqiymətləndirilmiş dəyərlə əks olunmayana qədər, belə zərər dərhal mənfəət və ya zərər hesabında tanınır.

Dəyərsizləşmə üzrə zərər sonradan əvəzləşdirilərsə, aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) balans dəyəri hesablanmasına düzəliş verilmiş bərpa dəyərinə qədər artırılır, bu şərtlə ki, artırılmış belə balans dəyəri aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) dəyərsizləşmə zərərinin tanınmadığı keçmiş illərdə müəyyən edilmiş balans dəyərindən artıq olmasın. Dəyərsizləşmə üzrə zərərin bərpası dərhal mənfəət və ya zərər hesabında tanınır.

**Vergiqoyma**

Mənfəət vergisi xərcləri ödənilməli olan cari vergi və təxirə salınmış vergidən ibarətdir.

**Cari vergi**

Ödənilməli olan cari vergi il üzrə vergiyə cəlb olunan mənfəət əsasında tutulur. Vergiyə cəlb olunan mənfəət digər illərdə vergiyə cəlb olunmuş yaxud gəlirdən çıxılan və heç vaxt vergiyə cəlb olunmayan yaxud gəlirdən çıxılmayan gəlir və xərc maddələri ilə əlaqədar mənfəət və ya zərər haqqında hesabatda əksini tapmış mənfəətdən fərqlənir. Təşkilatın cari vergi ilə bağlı öhdəliyi hesabat dövrünün sonuna qanuni qüvvəyə minmiş və ya hesabat dövrünün sonuna tam həcmdə qüvvəyə minmiş vergi dərəcələrindən istifadə etməklə hesablanır.

***Təxirə salınmış vergi***

Təxirə salınmış vergi maliyyə hesabatlarında əks olunan aktiv və öhdəliklərin balans dəyəri ilə vergiyə cəlb olunan mənfəətin hesablanmasında istifadə edilən müvafiq vergi bazası arasındakı müvəqqəti fərq əsasında tanınır. Təxirə salınmış vergi öhdəlikləri, ümumi hal olaraq, vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün tanınır. Təxirə salınmış vergi aktivləri, ümumi hal olaraq, gəlirdən çıxılan bütün müvəqqəti fərqlər üçün tanınır, bu şərtlə ki, belə müvəqqəti fərqlərin hesaba alınması üçün gələcəkdə vergiyə cəlb olunacaq mənfəətin əldə olunması ehtimal edilsin. Müvəqqəti fərqlər qudvildən, yaxud da nə vergiyə cəlb olunan mənfəətə, nə də uçotda əks olunmuş mənfəətə təsir göstərən əməliyyatlar üzrə digər aktiv və öhdəliklərin ilkin tanınmasından (müəssisə birləşmələri istisna edilməklə) irəli gələrsə, təxirə salınmış vergi aktivləri və öhdəlikləri uçotda tanınmır.

Təşkilatın müvəqqəti fərqlərin geri bərpa edilməsinə nəzarət imkanı olduğu və müvəqqəti fərqlərin proqnozlaşdırıla bilən gələcəkdə geri bərpa olunmayacağı ehtimal edildiyi hallar istisna olmaqla, təxirə salınmış vergi öhdəlikləri törəmə və asılı müəssisələrə investisiya qoyuluşları və birgə müəssisələrin kapitalındakı paylar ilə bağlı vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün tanınır. Sözü gedən investisiya qoyuluşları və paylar ilə bağlı gəlirdən çıxılan müvəqqəti fərqlərdən yaranan təxirə salınmış vergi aktivləri yalnız gələcəkdə belə müvəqqəti fərqlər əsasında tətbiq olunması üçün kifayət məbləğdə mənfəətin yaranacağı mümkün hesab edildikdə və onların proqnozlaşdırıla bilən gələcəkdə geri bərpa olunacağı gözlənildikdə tanınır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat dövrünün sonunda təhlil edilir və aktivin bütün və ya müəyyən hissəsinin bərpa olunması üçün yetərli mənfəətin yaranacağı ehtimalı olmayan həddə azaldılır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri qüvvəyə minmiş və ya hesabat dövrünün sonuna tam həcmdə qüvvə ilə vergi dərəcələrinə (və vergi qanunlarına) əsaslanmaqla aktivin satıldığı və ya öhdəliyin yerinə yetirildiyi dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcəsi ilə ölçülür.

***İl üzrə cari və təxirə salınmış vergi***

Cari və təxirə salınmış vergi digər məcmu mənfəət haqqında hesabatda yaxud birbaşa olaraq kapitalda göstərilən maddələrlə bağlı olduğu və nəticə etibarı ilə, müvafiq olaraq digər məcmu mənfəət və ya birbaşa kapital maddəsi kimi tanındığı hallar istisna edilməklə mənfəət və ya zərər hesablarında tanınır.

Cari vergi və ya təxirə salınmış vergi müəssisələrin birləşməsi üzrə ilkin uçotdan yarandıqda, vergi təsiri müəssisələrin birləşməsi üzrə ilkin uçota daxil edilir.

***Əməliyyat vergiləri***

Azərbaycan Respublikasında Təşkilatın fəaliyyəti ilə əlaqədar olaraq hesablanan bir sıra digər vergilər tətbiq edilir. Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi mənfəət və ya zərər haqqında hesabata daxil edilir.

***Ehtiyatlar***

Ehtiyatlar Təşkilatın keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman təşkilatdan öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün hesablanmasıdır. Ehtiyat ayırmaları hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri axınına istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun vaxt üzrə dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

Ehtiyatların yerləşdirilməsi üçün tələb olunan müəyyən və ya bütün iqtisadi mənfəətin kənar tərəflər vasitəsilə bərpa ediləcəyi gözlənilirsə, bu vəsaitin qaytarılması və alınacaq belə vəsaitlərin düzgün qiymətləndirilməsi barədə qəti əminlik olduqda alınacaq məbləğ uçotda aktiv kimi tanınır.

**Şərti aktiv və öhdəliklər**

Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin, hesablaşma üzrə vəsaitlərin azalması ehtimalı olduqda, belə öhdəliklər açıqlanmalıdır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin, onlarla bağlı iqtisadi mənfəətin əldə olunacağı ehtimal edildikdə açıqlanmalıdır.

**Xarici valyutalar**

Təşkilatin maliyyə hesabatları hazırlanarkən, onun əməliyyat valyutasından başqa digər valyuta (xarici valyutalar) ilə aparılan əməliyyatlar belə əməliyyatların aparıldığı tarixdə üstünlük təşkil edən mübadilə məzənnələri ilə qeydə alınır. Hər hesabat dövrünün sonunda, xarici valyuta ilə ifadə olunmuş pul vəsaitlərinin valyuta mövqeyi ədalətli dəyərin müəyyən olunduğu tarixdə üstünlük təşkil edən məzənnə ilə təkrar qiymətləndirilir. Xarici valyutada ədalətli dəyər ilə uçota alınmış qeyri-pul vəsaitlərinin valyuta mövqeyi ədalətli dəyərin müəyyənləşdirildiyi tarixdə üstünlük təşkil edən məzənnə ilə təkrar qiymətləndirilir. İlkin dəyərlə xarici valyutada ölçülmüş qeyri-pul vəsaitlərinin valyuta mövqeyi təkrar qiymətləndirilir.

Monetar maddələri üzrə valyuta fərqləri aşağıdakı hallar istisna olmaqla mənfəət və ya zərər hesabatında baş verdiyi dövrdə tanınır:

- Gələcəkdə istifadə üçün nəzərdə tutulmuş başa çatdırılmamış aktivlərlə əlaqəli xarici valyuta ilə ifadə olunmuş borclar üzrə məzənnə fərqləri, xarici valyuta ilə ifadə olunmuş borclar üzrə faiz xərclərinə düzəliş kimi hesab olunduqda aktivlərin dəyərinə daxil edilir
- Müəyyən xarici valyuta risklərinin qarşısını almaq üçün aparılan əməliyyatlar üzrə valyuta fərqləri (aşağıda hecinqin uçotu qaydalarına baxın) və hesablaşmanın olmadığı və olacağı güman edilməyən xarici əməliyyatlarda olan debitor və kreditor borclarında olan valyuta fərqləri (ona görə də xarici əməliyyatda xalis investisiya formalaşdırır), hansıki, ilk əvvəl digər gəlirlərdə göstərilir və daha sonra səhmdar kapitalından pul vəsaitlərinin mənfəət və zərər hesabına təsnif edilir.

Maliyyə hesabatlarının təqdim edilməsi məqsədi ilə Təşkilatın xarici əməliyyatlarının aktiv və öhdəlikləri hər hesabat müddətinin sonunda qüvvədə olan valyuta mübadilə məzənnələri əsasında AZN-ə çevrilir. Gəlir və xərc elementləri müəyyən müddət üçün orta valyuta mübadilə məzənnələri əsasında çevrilir, istisna hallarda valyuta mübadilə məzənnələri  həmin müddət ərzində əhəmiyyətli dərəcədə tərəddüd etdiyi halda sövdələşmələrin tarixində qüvvədə olan valyuta mübadilə məzənnələri istifadə olunur. Hər hansı valyuta mübadilə fərqləri meydana gəldiyi halda digər məcmu gəlirlər haqqında olan hesabatlarda tanınır və kapitalda toplanılır.

Maliyyə hesabatlarının hazırlanmasında Təşkilatın ilin sonunda tətbiq etdiyi valyuta mübadiləsi məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2013-cü il** | **31 dekabr 2012-ci il** |
|---|---|---|
| 1 ABŞ dolları/ 1 AZN | 0.7845 | 0.7850 |
| 1 Avro/ 1 AZN | 1.078 | 1.0377 |

**Girov**

Təşkilat məqsədə müvafiq hesab edildiyi hallarda müştərilərin öhdəlikləri müqabilində girov alır. Girov adətən müştəri əmlakının həbs olunmasını nəzərdə tutur və Təşkilata müştərinin həm cari, həm də gələcək öhdəlikləri ilə əlaqədar əmlaka qarşı iddianın irəli sürülməsi üçün əsas yaradır.

**Mühüm mühasibat uçotu mülahizələri və təxminlərlə bağlı qeyri-müəyyənliyin əsas mənbələri**

Təşkilatın mühasibat qaydalarını tətbiq edərkən, rəhbərlikdən digər mənbələrdən açıq əldə edilməsi mümkün olmayan aktiv və öhdəliklərin balans dəyərinə dair mülahizələr, hesablamalar və təxminlərin irəli sürülməsi tələb olunur. Hesablamalar və əlaqədar təxminlər keçmiş təcrübəyə və müvafiq hesab edilən digər amillərə əsaslanır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

Təxminlər və əsas götürülən fərziyyələr davamlı qaydada təhlil edilir. Mühasibat təxminlərinə olan düzəlişlər, belə düzəliş yalnız onun baş verdiyi dövrə təsir göstərdikdə həmin dövrdə, cari və gələcək dövrlərə təsir göstərdikdə isə düzəlişin baş verdiyi və gələcək dövrdə tanınır.

***Mühasibat uçotu qaydalarının tətbiqində əsas mühakimələr***

Aşağıda qiymətləndirmə tələb edənlər istisna olmaqla, rəhbərlik tərəfindən Təşkilatın mühasibat qaydalarının tətbiqində istifadə olunan və maliyyə hesabatlarında qeyd olunan məbləğlərə mühüm təsir edən əsas mühakimələr verilmişdir.

***Təxminlərlə bağlı qeyri-müəyyənliyin əsas mənbələri***

Aşağıda gələcək dövrlərə aid əsas fərziyyələr və hesabat dövrünün sonuna təxminlərlə bağlı qeyri-müəyyənliyin əsas mənbələri göstərilir ki, bu da növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsi riskini daşıyır.

***Kreditlərin və debitor borclarının dəyərsizləşməsi***

Təşkilat dəyərsizləşməni müəyyən etmək məqsədilə kreditləri və debitor borclarını mütəmadi olaraq nəzərdən keçirir. Təşkilatın kreditlər və debitor borcları portfelində baş vermiş dəyərsizləşmə üzrə zərərin tanınması üçün kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatlar yaradılır. Təşkilat kredit və debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlara dair mühasibat təxminlərini qeyri-müəyyən hesab edir, ona görə ki, (i) onlar gələcək defolt dərəcələri barədə fərziyyələrin, eləcə də dəyərsizləşmiş kreditlər və debitor borcları ilə bağlı potensial itkilərin qiymətləndirilməsinin yaxın keçmişdəki fəaliyyət nəticələrinə əsaslanması səbəbindən vaxtaşırı olaraq dəyişikliklərə çox məruz qalır və (ii) Təşkilatın hesabladığı zərər ilə faktiki zərər arasında hər hansı əhəmiyyətli fərq müqabilində ondan gələcək dövrlərdə maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək ehtiyatların qeyd edilməsi tələb oluna bilər.

Borcalanlar maliyyə çətinlikləri ilə üzləşdikdə və belə borcalanlara dair tarixi məlumat mənbələri az sayda olduqda, Təşkilat hər hansı dəyərsizləşmə üzrə zərərin məbləğini hesablamaq üçün rəhbərliyin mülahizələrindən istifadə edir. Eynilə, Təşkilat keçmiş fəaliyyət nəticələri, keçmiş müştəri davranışı, qrup daxilində borcalanın ödəniş etmə vəziyyətindəki mənfi dəyişiklikləri göstərən müşahidə oluna bilən məlumatları, eləcə də qrup daxilində aktiv üzrə öhdəliyin yerinə yetirilməməsi halları ilə əlaqəli olan ölkə və yerli iqtisadi şəraitlərə əsaslanmaqla gələcək pul axınlarındakı dəyişiklikləri hesablayır. Rəhbərlik kredit riski ilə səciyyələnən aktivlər halında əvvəllər baş vermiş zərər üzrə keçmiş təcrübəyə və kreditlər qrupunda olduğu kimi dəyərsizləşməyə dəlalət edən obyektiv sübutlara əsaslanan ehtimallardan istifadə edir. Təşkilat tarixi məlumatlarda əksini tapmamış hazırkı vəziyyətlərin qeyd edilməsi məqsədilə kreditlər qrupu üzrə müşahidə oluna bilən məlumatlara düzəliş etmək üçün rəhbərliyin mühakimələrindən istifadə edir.

Maliyyə hesabatlarında maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyat müddəasının daxil edilməsi mövcud iqtisadi və siyasi şəraitlərə əsasən müəyyən olunmuşdur. Təşkilat Azərbaycan Respublikasında belə şəraitlərdə hansı dəyişikliklərin baş verəcəyini və belə dəyişikliklərin gələcək dövrlərdə maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyatlara necə təsir göstərəcəyini qabaqcadan söyləmək iqtidarında deyil.

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə kredit və debitor borclarının ümumi məbləği müvafiq olaraq 161,572 min AZN və 117,452 min AZN, dəyərsizləşmə zərəri üçün ehtiyatların məbləği isə müvafiq olaraq 743 min AZN və 891 min AZN təşkil etmişdir.

Maliyyə alətlərinin qiymətləndirilməsi

22 saylı qeyddə izah edildiyi kimi, Təşkilat müəyyən növlü maliyyə alətlərinin ədalətli dəyərini hesablamaq üçün müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmayan giriş məlumatlardan ibarət qiymətləndirmə üsullarından istifadə edir.

22 saylı qeyddə maliyyə alətlərinin ədalətli dəyərinin müəyyənləşdirilməsində tətbiq edilən əsas fərziyyələrə dair müfəssəl məlumat, eləcə də belə fərziyyələr üzrə həssaslıq təhlilinin təfərrüatları göstərilir.

Rəhbərlik hesab edir ki, tətbiq olunan seçilmiş qiymətləndirmə üsulları və fərziyyələr maliyyə alətlərinin ədalətli dəyərinin müəyyən edilməsi üçün məqsədə uyğundur.

Əmlak və avadanlığın faydalı istismar müddətləri

Yuxarıda göstərildiyi kimi, Təşkilat hər hesabat ilinin sonunda əmlak və avadanlıqlarının hesablanmış faydalı istismar müddətlərini nəzərdən keçirir.

## 3. YENİ VƏ DÜZƏLİŞ EDİLMİŞ MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARININ (MHBS-ların) TƏTBİQİ

**Maliyyə hesabatlarında hesabat olunan məbləğlərə təsir edən MHBS-lərə düzəlişlər**

Aşağıdakı yeni və düzəliş edilmiş standartlar və şərhlər cari ildə qəbul edilmişdir və onların qəbul edilməsi bu maliyyə hesabatlarında hesabat olunan məbləğlərə təsir göstərmişdir.

**Maliyyə hesabatlarına təsir edən standartlar**

**Konsolidasiya, birgə razılaşmalar, asılı müəssisələr və açıqlamalar üzrə yeni və düzəliş edilmiş standartlar**

2011-ci ilin may ayında konsolidasiya, birgə razılaşmalar, asılı müəssisələr və açıqlamalara dair beş standart toplusu buraxılmışdır ki, bu standartlara da MHBS 10 *Konsolidə edilmiş maliyyə hesabatları,* MHBS 11 *Birgə razılaşmalar,* MHBS 12 *Digər müəssisələrdə iştirak paylarının açıqlanması,* MUBS 27 *Fərdi maliyyə hesabatları* (2011-ci ildə düzəliş edildiyi kimi) və MUBS 28 *Asılı və Birgə Müəssisələrə İnvestisiyalar* (2011-ci ildə düzəliş edildiyi kimi) daxil idi. Bu standartlar buraxıldıqdan sonra bu standartlara keçid üzrə müəyyən təlimatları aydınlaşdırmaq üçün MHBS 10-a, MHBS 11-ə və MHBS 12-yə düzəlişlər buraxılmışdır.

Cari ildə təşkilat ildə dəfə MHBS 10, MHBS 11, MHBS 12 və MHBS 28-i (2011-ci ildə düzəliş edildiyi kimi) keçid təlimatı haqqında MHBS 10, MHBS 11 və MHBS 12-yə düzəlişlərlə birlikdə tətbiq etmişdir. MUBS 27 (2011-ci ildə düzəliş edildiyi kimi) yalnız fərdi maliyyə hesabatlarına aid olduğundan Təşkilata tətbiq olunmur.

Bu standartların tətbiq eidlməsinin təsiri aşağıda göstərilir.

***MHBS 12-nin tətbiq edilməsinin təsiri.*** MHBS 12 yeni açıqlama standartıdır və törəmə müəssisələrdə, birgə müəssisələrəd, asılı müəssisələrdə və/və ya strukturlaşdırılmamış müəssisələrdə payı olan müəssisələrə şamil olunur. Ümumilikdə, MHBS 12-nin tətbiqi maliyyə hesabatlarında daha geniş açıqlamaların verilməsi ilə nəticələnmişdir.

***MHBS 7-yə Maliyyə Alətləri: Məlumatın Açıqlanması adlı* düzəlişlər.** Cari ildə Təşkilat *Açıqlamalar – Maliyyə aktivlərinin ötürülməsi adlı MHBS 7-yə* düzəlişləri tətbiq etmişdir. Düzəlişlər maliyyə aktivlərinin ötürülməsi zamanı riskə məruzqalma ilə bağlı şəffaflığın artırılması məqsədilə maliyyə aktivlərinin ötürülməsi əməliyyatları üçün açıqlama tələblərini artırır.

Cari ildə Təşkilat tanınması dayandırılmamış bəzi maliyyə aktivlərini ötürmüşdür. Düzəlişlərin tətbiqi maliyyə aktivlərinin ötürülməsi ilə bağlı daha çox açıqlamaların verilməsi ilə nəticələnmişdir. MHBS 7-yə düzəlişlərlə əks olunan keçid müddəalarına uyğun olaraq Təşkilat əvvəlki dövrlər üçün düzəlişlərin tələb etdiyi açıqlamalarla bağlı müqayisəli məlumatı təqdim etməmişdir.

**Maliyyə hesabatlarının təqdimatı haqqında MUBS 1-ə düzəlişlər *(2011-ci ilin iyun ayında düzəliş edilmiş).*** Təşkilat *Digər Məcmu Mənfəət Maddələrinin Təqdimatı* adlı MUBS 1-ə düzəlişləri qüvvəyə minmə tarixindən əvvəl (1 iyul 2012-ci il tarixindən başlayan və ondan sonrakı illik dövrlər üçün) tətbiq etmişdir. Düzəliş məcmu mənfəət haqqında hesabatda tələb olunan açıqlama dərəcəsini artırır.

Bu düzəlişin məcmu mənfəət haqqında hesabata daxil olan maddələrin aid olduqları müvafiq MHBS standartına uyğun olaraq daha sonra mənfəət və ya zərər üzrə yenidən təsnifləşdirilməyən və yenidən təsnifləşdirilən maddələr arasında təhlilinə təsiri olmuşdur. Eyni əsasda mənfəət vergisinin təhlili ilə əlaqədar maliyyə hesabatlarına düzəliş eidlmişdir. Düzəlişlər keçmiş dövrlərə şamil olunmaqla tətbiq edilmişdir və müvafiq olaraq düzəlişlərin əks etdirilməsi üçün məcmu mənfəət maddələrinin təqdimatına dəyişiklik edilmişdir. Yuxarıda qeyd olunan təqdimata dəyişikliklərdən əlavə, MUBS-1-ə düzəlişlərin tətbiqi mənfəət və ya zərər, məcmu mənfəət və Cəmi məcmu mənfəətə hər hansı təsir göstərməmişdir.

***MUBS 19 İşçilərin mükafatlandırılması (2011-ci ilin iyun ayında düzəliş edilmiş)*** – Cari ildə Təşkilat İşçilərin mükafatlandılması haqqında MUBS 19-u (2011-ci ilin iyun ayında düzəliş edildiyi kimi) və bundan irəli gələn düzəlişləri qüvvəyə minmə tarixindən əvvəl qəbul etmişdir. İşçilərin mükafatlandılması haqqında MUBS 19-u (2011-ci ilin iyun ayında düzəliş edildiyi kimi) keçmiş dövrlərə şamil olunmaqla və MUBS 19.173-də qeyd olunan keçid müddəalarına uyğun olaraq tətbiq etmişdir. Bu keçid müddəaları gələcək dövrlərə təsir etmir. MUBS 19-a düzəlişlər müəyyən olunmuş müavinət planları və işdən çıxma müavinətləri ilə bağlı uçot qaydalarına dəyişiklik edir. Ən mühüm dəyişiklik müəyyən olunmuş müavinət öhdəlikləri və işdən çıxma müavinətləri üzrə dəyişikliklərlə bağlıdır. Düzəlişlər yarandıqları zaman müəyyən olunmuş müavinət öhdəliklərində və plan aktivlərinin ədalətli dəyərində dəyişikliklərin tanınmasını tələb edir və beləliklə də, MUBS 19-un əvvəlki versiyasında icazə verilən "dəhliz yanaşmasını" ləğv edir və keçmiş xidmət xərclərinin tanınmasını tezləşdirir. Balans hesabatında tanınmış xalis pensiya aktivi və ya öhdəliyinin planlaşdırılmış kəsir və ya artığın tam dəyərini əks etdirməsi üçün bütün sığorta gəlirləri və zərərləri dərhal digər məcmu mənfəət haqqında hesabatda tanınır. Bundan başqa MUBS 19-un əvvəlki versiyasında istifadə olunan plan aktivləri üzrə faiz xərci və gözlənilən daxilolmalar (2011-ci ilin iyun ayında düzəliş edilmiş) MUBS 19-a əsasən diskont dərəcəsini xalis müəyyən olunmuş müavinət öhdəliyinə və ya aktivinə tətbiq etməklə hesablanmış "xalis faiz" ilə əvəz olunur. Həmçinin MUBS 19 (2011-ci ilin iyun ayında düzəliş edilmiş) müəyyən olunmuş müavinət xərclərinin təqdim edilməsi zamanı daha geniş açıqlamaların verilməsini tələb edir.

**MHBS 13 - *Ədalətli dəyərin ölçülməsi***. Təşkilat MHBS 13-ü ilk dəfə bu il tətbiq etmişdir. MHBS 13 ədalətli dəyərin ölçülməsi və açıqlanması üçün vahid qaydaları müəyyən edir. MHBS 13-n əhatə dairəsi genişdir; ədalətli dəyərin ölçülməsi tələbləri həm maliyyə, həm də qeyri-maliyyə alətləri maddələrinə şamil olunur ki, bununla əlaqədar digər MHBS-lər Pay Alətləri əsasında ödəmə adlı MHBS 2-yə daxil olan pay alətləri üzrə ödəmə əməliyyatları, İcarə haqqında MUBS 17-yə daxil olan icarə əməliyyatları və ədalətli dəyərin ölçülməsinə oxşar olan lakin ədalətli dəyər ölçülməsi olmayan qiymətləndirmələr (məsələn, ehtiyatların qiymətləndirilməsi məqsədilə xalis satış dəyəri və ya dəyərsizləşmənin qiymətləndirilməsi üçün istismar dəyəri) istisna olmaqla ədalətli dəyərin ölçülməsini və onunla bağlı açıqlamaları tələb edir və ya buna icazə verir.

MHBS 13 ədalətli dəyəri hazırkı bazar şəraitində qiymətləndirmə tarixinə əsas (və ya ən üstün) bazarda düzgün təşkil olunmuş əməliyyat üzrə aktivin satılmasından əldə oluna bilən və ya öhdəliyin ötürülməsi üçün ödənilmiş qiymət kimi müəyyən edir. MHBS 13 əsasında ədalətli dəyər qiymətin bilavasitə müşahidə olunmasından və ya digər qiymətləndirmə vasitəsini istifadə etməklə hesablanmasından asılı olmayaraq çıxış qiymətidir. Həmçinin MHBS 13-ə geniş açıqlama tələbləri daxildir.

MHBS 13 - 1 yanvar 2013-cü il tarixindən etibarən keçmiş dövrlərə aid etməklə tətbiqi tələb edir. Bundan əlavə, müəssisələrə verilmiş xüsusi keçid müddəaları bu standartı ilk dəfə tətbiq etməzdən əvvəlki dövrlər üçün təqdim olunan müqayisəli məlumatda bu standartda müəyyən olunan açıqlama tələblərinin onlar tərəfindən tətbiq edilməsinə ehtiyac olmadığını müəyyən edir. Bu keçid müddəalarına əsasən müəssisə 2012-ci il müqayisəli dövrü üçün MHBS 13 ilə tələb olunan hər hansı yeni açıqlamalar verməmişdir. Əlavə açıqlamalardan başqa, MHBS 13-ün tətbiqi maliyyə hesabatlarında tanınmış məbləğlərə hər hansı mühüm təsir göstərməmişdir.

**Maliyyə hesabatlarının təqdimatı haqqında MUBS 1-ə düzəlişlər (2009-2011-ci illəri əhatə edən və 2012-ci ilin may ayında buraxılmış MHBS-lərə illik təkmilləşmələrin bir hissəsi kimi)**

2009-2011-ci illəri əhatə edən illik təkmilləşmələr çərçivəsində MHBS-lərə çoxlu sayda düzəlişlər edilmişdir. Təşkilata aid olan düzəlişlərə keçmiş dövrün əvvəlinə (maliyyə vəziyyəti haqqında üçüncü hesabat) maliyyə vəziyyəti haqqında hesabatın və aidiyyəti qeydlərin təqdim olunma vaxtı ilə bağlı MUBS 1-ə edilmiş düzəlişlər daxildir. Düzəlişlər maliyyə vəziyyəti haqqında üçüncü hesabatın (a) müəssisə mühasibat uçotunu keçmiş dövrlərə aid etməklə tətbiq etdikdə və ya maliyyə hesabatlarındakı maddələri keçmiş dövrlərə aid etməklə yenidən bəyan etdikdə və ya yenidən təsnifləndirdikdə və (b) keçmiş dövrlərə aid olunan tətbiq, yenidən bəyannamə və ya yenidən təsnifləndirmə maliyyə vəziyyəti haqqında üçüncü hesabatdakı məlumata mühüm təsir etdikdə tələb olunduğunu müəyyən edir. Düzəlişlər aidiyyəti qeydlərin maliyyə vəziyyəti haqqında üçüncü hesabata əlavə edilməsi tələbinin olmadığını müəyyən edir.

Cari ildə Təşkilat 1 yanvar 2012-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdakı məlumata mühüm təsir edən bir sıra yeni və düzəliş edilmiş MHBSləri (yuxarıdakı müzakirəyə baxın) tətbiq etmişdir. MUBS 1-ə edilən düzəlişlərə əsasən Təşkilat aşağıda qeyd edilən Mühasibat uçotu Siyasətləri, Uçot təxminlərində dəyişikliklər və səhvlər haqqında MUBS 8-də verilən açıqlama tələbləri istisna olmaqa, 1 yanvar 2012-ci il tarixinə maliyyə vəziyyəti haqqında üçüncü hesabatı aidiyyatı qeydlərsiz təqdim etmişdir.

***Maliyyə vəziyyətinə və maliyyə nəticələrinə təsir etməyən standartlar.*** Cari ildə aşağıdakı yeni və düzəliş edilmiş Standartlar və Şərhlər qəbul edilmişdir. Bu standartların və şərhlərin qəbulu hazırkı maliyyə hesabatlarında qeyd olunan məbləğlərə hər hansı mühüm təsir göstərməmişdir.

***Mənfəət vergisi haqqında MUBS 12-yə düzəlişlər.*** "Təxirə salınmış vergilər: Baza aktivlərinin bərpası" haqqında MUBS 12-yə düzəlişlər (dekabr 2010-cu il) İnvestisiya mülkiyyəti haqqında MUBS 40-a uyğun olaraq ədalətli dəyər modelini istifadə etməklə investisiya mülkiyyətinin ölçülməsi zamanı təxirə salınmış vergi öhdəlikləri və təxirə salınmış vergi aktivlərinin qiymətləndirilməsi üzrə praktiki yanaşmadır. Bu düzəlişlərə əsasən investisiya mülkiyyətinin satış vasitəsilə tam bərpa olunacağı ehtimal edilir. Bu ehtimal o halda təkzib edilir ki, investisiya mülkiyyəti, belə mülkiyyət üzrə iqtisadi mənfəətin əsas hissəsinin satış vasitəsilə deyil, uzun müddət ərzində sərf edilməsini nəzərdə tutan biznes model çərçivəsində saxlansın.

**Buraxmış lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilmiş MHBS-lər**

Təşkilat buraxılmış lakin hələ qüvvəyə minməmiş aşağıdakı yeni və düzəliş edilmiş MHBS-ləri tətbiq etməmişdir:

- MHBS 9 *Maliyyə Alətləri*
- *MHBS 9-un İcbari qüvvəyə minmə tarixi və Keçid Açıqlamaları* haqqında MHBS 9 və MHBS 7-yə düzəlişlər[2]
- MHBS 10, MHBS 12 və MUBS 27-yə *İnvestisiya müəssisələri* haqqında düzəlişlər[1]
- *Maliyyə aktivlərinin və Maliyyə öhdəliklərinin əvəzləşdirilməsi* haqqında MUBS 32-yə düzəlişlər[1]

[1] Daha erkən tətbiqinə icazə verilməklə, 1 yanvar 2014-cü il tarixində başlayan və ya ondan sonrakı illik dövrlər üçün qüvvədədir.
[2] Daha erkən tətbiqinə icazə verilməklə, 1 yanvar 2015-ci il tarixində başlayan və ya ondan sonrakı illik dövrlər üçün qüvvədədir.

***MHBS 9 Maliyyə Alətləri.*** Bu standart 2009-cu ilin noyabr ayında buraxılmışdır və maliyyə aktivlərinin təsnifatı və qiymətləndirilməsi üçün yeni tələbləri təqdim edir. 2010-cu ilin oktyabrında MHBS 9-a edilən düzəliş maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsi, habelə tanınmasının dayandandırılması ilə bağlı yeni tələbləri təsbit edir.

MHBS 9 üzrə əsas tələblər:

- *"Maliyyə Alətləri: Tanınma və Ölçülmə"* adlı 39 saylı MUBS-un əhatə dairəsinə daxil olan bütün tanınmış maliyyə aktivlərinin sonradan amortizasiya olunmuş yaxud ədalətli dəyərlə ölçülməsi tələb olunur. Xüsusilə də, müqavilə üzrə pul daxilolmalarının yığılması məqsədini daşıyan biznes modeli çərçivəsində saxlanılan və müqavilə üzrə pul daxilolmaları yalnız əsas borc məbləği, eləcə də ödənilməmiş əsas borc məbləği üzrə faizlərin ödənilməsindən ibarət olan borc investisiyaları ümumiyyətlə növbəti hesabat dövrlərinin sonunda amortizasiya edilmiş dəyərlə ölçülür. Bütün digər borc və kapitala investisiya qoyuluşları növbəti hesabat dövrlərinin sonunda ədalətli dəyərlə ölçülür. Bundan başqa Maliyyə alətləri haqqında MHBS 9-a əsasən müəssisələr (ticarət üçün saxlanılmayan) yalnız dividend üzrə gəliri mənfəət və ya zərər hesablarında tanımaq şərtilə kapitala investisiyanın ədalətli dəyərində sonrakı dəyişikliklərin digər məcmu mənfəət hesabatında təqdim edilməsi ilə bağlı yekun seçim edə bilərlər.
- 9 saylı MHBS-ə əsasən mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd edilmiş maliyyə öhdəlikləri halında bu cür maliyyə öhdəliyi üzrə kredit riskindəki dəyişikliyə aid edilən onun ədalətli dəyərində baş vermiş dəyişiklik öhdəlik üzrə kredit riskində baş vermiş dəyişikliyin təsir nəticələrinin digər məcmu mənfəət hesabatında tanınması mənfəət və zərər üzrə uçot qeydlərində uyğunsuzluqların baş verməsi yaxud artmasına gətirib çıxarmadığı halda digər məcmu mənfəət hesabatında tanınır. Maliyyə öhdəliyinin kredit riskinə aid edilən ədalətli dəyərdə baş vermiş dəyişiklik sonradan mənfəət və ya zərər hesabında təkrar təsnif edilmir. 39 saylı MUBS-ə əsasən mənfəət və ya zərər hesabında ədalətli dəyərlə nəzərdə tutulmuş maliyyə öhdəliyinin ədalətli dəyərindəki dəyişikliklərin məbləği bütövlüklə mənfəət və ya zərər hesabında təqdim olunur.

Təşkilatın rəhbərliyi MHBS 9-un tətbiq edilməsinin gələcəkdə onun maliyyə aktivləri və maliyyə öhdəlikləri ilə bağlı hesabat olunan məbləğlərə mühüm təsir edə biləcəyini ehtimal edir (məsələn, ədalətli dəyərdəki dəyişiklikləri mənfəət və ya zərər hesabları üzrə qeyd etməklə Təşkilatın hazırda satıla bilən maliyyə aktivləri kimi təsnifləşdirilmiş geri alınan notlara investisiyaları növbəti hesabat dövrlərinin sonunda ədalətli dəyərlə ölçülməlidir). Lakin, ətraflı təhlil tamamlanmayana qədər MHBS 9-un təsirini düzgün şəkildə qiymətləndirmək mümkün deyil.

***İnvestisiya müəssisələri haqqında MHBS 10, MHBS 12 və MUBS 27-yə düzəlişlər.*** MHBS 10-a düzəlişlər investisiya müəssisəsini müəyyən edir və investisiya müəssisəsi anlayışına uyğun olan hesabatçı müəssisədən öz törəmə müəssisələrini konsolidasiya etməməyi bunun əvəzinə onları öz konsolidə edilmiş və fərdi maliyyə hesabatlarında mənfəət və ya zərər hesabları üzrə ədalətli dəyərlə göstərməyi tələb edir.

İnvestisiya müəssisəsi kimi fəaliyyət göstərmək üçün hesabatçı müəssisədən aşağıdakılar tələb olunur:

- Bir və ya daha çox investordan onları peşəkar investisiya idarəetmə xidmətləri ilə təmin etmək üçün vəsaitlər almaq;
- İnvestorlar qarşısında biznes məqsədinin yalnız kapitalın dəyərindəki artımdan və ya investisiya gəlirindən və ya hər ikisindən mənfəətin əldə edilməsindən ibarət olması barədə öz üzərinə öhdəlik götürmək; və
- Bütün investisiyalar üzrə ədalətli dəyər əsasında fəaliyyət nəticələrini qiymətləndirmək və müəyyən etmək.

İnvestisiya müəssisələri üçün yeni açıqlama tələblərini tətbiq etmək məqsədilə MHBS 12-yə və MUBS 27-yə növbəti düzəlişlər edilmişdir.

Təşkilat investisiya müəssisəsi olmadığından Təşkilatın rəhbərliyi investisiya müəssisələri tərəfindən düzəlişlərin onun maliyyə hesabatlarına hər hansı təsir edəcəyini düşünmür.

***Maliyyə aktivlərinin və Maliyyə öhdəliklərinin əvəzləşdirilməsi haqqında MUBS 32-yə düzəlişlər*** – MUBS 32-yə düzəlişlər maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin əvəzləşdirilməsi ilə bağlı tələblərinə aydınlıq gətirir. Xüsusilə də, bu düzəlişlər "hazırda əvəzləşdirmə üçün hüquqi qüvvəyə malik olan" və "eyni zamanda satış və hesablaşmanın aparılması" ifadəsinin mənasına aydınlıq gətirir.

Təşkilat əvəzləşdirilməli olan hər hansı maliyyə aktivlərinə və ya maliyyə öhdəliklərinə malik olmadığından onun rəhbərliyi MUBS 32-yə bu düzəlişlərin tətbiqinin müəssisənin maliyyə hesabatlarına mühüm təsir edəcəyini düşünmür.

## 4. XALİS FAİZ GƏLİRLƏRİ

| | 31 dekabr 2013-cü il tarixinə bitən il | 31 dekabr 2012-ci il tarixinə bitən il |
|---|---|---|
| **Faiz gəlirləri aşağıdakılardan ibarətdir:** | | |
| Amortizasiya olunmuş dəyərlə qeydə alınan maliyyə aktivləri üzrə faiz gəliri: | | |
| - Dəyərsizləşmiş maliyyə aktivləri üzrə faiz gəliri | 152 | 58 |
| - Dəyərsizləşməmiş maliyyə aktivləri üzrə faiz gəliri | 51,849 | 42,684 |
| **Cəmi faiz gəliri** | 52,001 | 42,742 |
| Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə aktivləri üzrə faiz gəliri aşağıdakılardan ibarətdir: | | |
| -Müştərilərə verilmiş kreditlər üzrə faiz | 51,755 | 42,517 |
| -Banklardakı müddətli depozitlər üzrə faiz | 246 | 225 |
| Cəmi amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə aktivləri üzrə faiz gəliri | 52,001 | 42,742 |
| **Faiz xərcləri aşağıdakılardan ibarətdir:** | | |
| Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə öhdəlikləri üzrə faiz | (11,085) | (8,412) |
| **Cəmi faiz xərci** | (11,085) | (8,412) |
| Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə öhdəlikləri üzrə faiz xərci aşağıdakılardan ibarətdir: | | |
| - Digər borc alınmış vəsaitlər üzrə faiz | (10,124) | (7,624) |
| - Subordinasiyalı borclar üzrə faiz | (961) | (788) |
| Cəmi amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə öhdəlikləri üzrə faiz xərci | (11,085) | (8,412) |
| **Faiz hesablanan maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatın bərpasından əvvəl xalis faiz gəliri** | **40,916** | **34,330** |

## 5. DƏYƏRSİZLƏŞMƏ ZƏRƏRLƏRI ÜÇÜN EHTİYAT

Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatda hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | Müştərilərə verilmiş kreditlər |
|---|---|
| **1 yanvar 2012-ci il** | 670 |
| Qeydə alınmış əlavə ehtiyatlar | 406 |
| Aktivlərin silinməsi | (360) |
| Əvvəllər silinmiş aktivlərin bərpası | 176 |
| Xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklərin təsiri | (1) |
| **31 dekabr 2012-ci il** | **891** |
| Qeydə alınmış əlavə ehtiyatlar | 60 |
| Aktivlərin silinməsi | (434) |
| Əvvəllər silinmiş aktivlərin bərpası | 226 |
| **31 dekabr 2013-cü il** | **743** |

## 6. MƏNFƏƏT VƏ YA ZƏRƏR HESABLARINDA ƏDALƏTLİ DƏYƏRLƏ QEYDƏ ALINMIŞ MALİYYƏ AKTIVLƏRİ VƏ ÖHDƏLİKLƏRİ ÜZRƏ XALİS ZƏRƏR

Mənfəət və ya zərər hesablarinda ədalətli dəyərlə qeydə allnmiş maliyyə aktivləri və öhdəlikləri üzrə xalis zərər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2013-cü il tarixinə bitən il | 31 dekabr 2012-ci il tarixinə bitən il |
|---|---|---|
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə müəyyən olunmuş maliyyə öhdəlikləri ilə əməliyyatlar üzrə xalis zərər | 910 | 79 |
| **Cəmi mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd olunan maliyyə aktivləri və öhdəlikləri üzrə cəmi xalis zərər** | **910** | **79** |

## 7. XARİCİ VALYUTA ƏMƏLİYYATLARI ÜZRƏ XALİS MƏNFƏƏT/ZƏRƏR

Xarici valyuta əməliyyatları üzrə xalis zərər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2013-cü il tarixinə bitən il | 31 dekabr 2012-ci il tarixinə bitən il |
|---|---|---|
| Valyuta konvertasiyaları | (46) | (137) |
| Köçürmə fərqləri, xalis | 11 | 69 |
| **Cəmi xarici valyuta əməliyyatları üzrə Cəmi xalis zərər** | **(35)** | **(68)** |

## 8. İNZİBATİ VƏ DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

İnzibati və digər əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2013-cü il tarixinə bitən il** | **31 dekabr 2012-ci il tarixinə bitən il** |
|---|---|---|
| Əmək haqqı və maaşlar | 10,820 | 7,826 |
| Müavinətlər, həvəsləndirici mükafatlar və digər ödənişlər | 4,116 | 3,338 |
| İcbari social sığorta ayırmaları | 3,262 | 2,153 |
| İdarəetmə xidməti müqavilələri üzrə haqlar | 2,885 | 765 |
| Royalti | 1,687 | 1,911 |
| İcarə xərcləri | 1,389 | 1,213 |
| Köhnəlmə və amortizasiya | 1,213 | 1,055 |
| Bank komissiyaları (inzibati) | 970 | 723 |
| Təhlükəsizlik xərcləri | 667 | 539 |
| İstehlak malları və dəftərxana ləvazimatları | 608 | 344 |
| Rabitə (internet,telefon,poçt və sair) | 458 | 431 |
| İT üzrə peşəkar xidmət haqları | 413 | 326 |
| Digər peşəkar xidmət haqları | 300 | 163 |
| Marketinq | 297 | 262 |
| İşgüzar səfər üzrə xərclər | 288 | 286 |
| İşçilərin tibbi sığortası | 216 | - |
| Görüş və konfrans | 109 | 168 |
| Təlim və işə götürmə | 95 | 65 |
| Kommunal xərclər | 94 | 71 |
| Audit haqları | 66 | 54 |
| Təmir və istismar xərlcəri | 65 | 109 |
| Nəqliyyat vasitələri ilə bağlı xərclər | 20 | 310 |
| Sığorta xərcləri | 55 | - |
| Digər xərclər | 53 | 74 |
| Mənfəət vergisindən başqa vergilər | (111) | 295 |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **30,035** | **22,481** |

## 9. MƏNFƏƏT VERGİSİ

Təşkilat ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəlikləri üzrə vergi bazalarını onun fəaliyyət göstərdiyi ölkələrin Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, bu da MHBS-dan fərqli ola bilər.

Təşkilat bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergi məqsədləri üçün vergidən azad olduğundan daimi vergi fərqləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatları məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin balans dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlər üzrə xalis vergi təsirini əks etdirir. 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar, zaman müddətləri, eləcə də müəyyən aktivlər üzrə vergi - uçot əsaslı fərqlərdən yaranan müvəqqəti fərqlər ilə əlaqəlidir.

Aşağıdakı məbləğlərin üzləşdirilməsində tətbiq edilən vergi dərəcəsi Azərbaycan Respublikasında vergi qanunvericiliyinə əsasən (müəyyən edildiyi kimi) hüquqi şəxslər tərəfindən vergiyə cəlb olunan mənfəət üzrə ödəniləcək 20 %-lik (2012: 20%) mənfəət vergisi dərəcəsidir.

31 dekabr 2013-cü il və 2012-ci il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2013-cü il** | **31 dekabr 2012-ci il** |
|---|---|---|
| Aşağıdakılar üzrə təxirə salınmış vergi aktivləri/(öhdəlikləri): | | |
| Müştərilərə verilmiş kreditlər | 725 | 506 |
| Digər öhdəliklər | (3) | 111 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 148 | 178 |
| Kreditlərin dəyərsizləşməsi ehtiyatları | 169 | 26 |
| Digər aktivlər | 426 | 311 |
| Digər borc alınmış vəsaitlər | (128) | - |
| **Xalis təxirə salınmış vergi aktivi** | **1,337** | **1,132** |

31 dekabr 2013 və 2012-ci il tarixlərinə qüvvədə olan vergi dərəcəsinin üzləşdirməsi aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2013-cü il tarixinə bitən il** | **31 dekabr 2012-ci il tarixinə bitən il** |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl mənfəət | 9,840 | 11,499 |
| 20% yerli vergi dərəcəsi ilə nəzəri vergi xərci | 2,073 | 2,357 |
| Daimi fərqlərin vergi təsiri | 299 | 93 |
| **Mənfəət vergisi xərci** | **2,372** | **2,450** |
| Cari mənfəət vergisi xərci | 2,579 | 2,758 |
| Təxirə salınmış vergi mənfəəti | (207) | (308) |
| **Mənfəət vergisi xərci** | **2,372** | **2,450** |

| **Təxirə salınmış mənfəət vergisi aktivləri** | **31 dekabr 2013-cü il** | **31 dekabr 2012-ci il** |
|---|---|---|
| 1 yanvar tarixinə təxirə salınmış vergi aktivləri | 1,132 | 824 |
| Mənfəət və ya zərər hesablarında tanınan təxirə salınmış mənfəət vergisi qalıqlarında dəyişiklik | 205 | 308 |
| **31 dekabr tarixinə təxirə salınmış vergi aktivləri** | **1,337** | **1,132** |

## 10. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | **31 dekabr 2013-cü il** | **31 dekabr 2012-ci il** |
|---|---|---|
| Nağd vəsaitlər və banklardakı qalıqlar | 13,495 | 7,224 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **13,495** | **7,224** |

## 11. BANKLARDAKI MÜDDƏTLİ DEPOZİTLƏRİ

Banklardakı müddətli depozitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| Banklardakı müddətli depozitlər | 3,959 | 2,634 |
| **Cəmi banklardakı müddətli depozitlər** | **3,959** | **2,634** |

31 dekabr 2013-cü il tarixinə Təşkilatın Standart Bank QSC və Access Bank ASC ilə qalıq vəsaitləri olmuşdur ki, onların hər biri ayrılıqda Təşkilatın kapitalının 10%-dən çox olmamışdır. 31 dekabr 2012-ci il tarixinə Təşkilatın Azərbaycan Beynəlxalq Bankı ASC ilə qalıq vəsaitləri olmuşdur ki, onların hər biri ayrılıqda Təşkilatın kapitalının 10%-dən çox olmamışdır.

## 12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 161,573 | 117,452 |
| Çıxılsın: Dəyərsizləşmə zərərləri üçün ehtiyat | (743) | (891) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **160,830** | **116,561** |

31 dekabr 2013 və 2012-ci il tarixinə bitən illər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatda hərəkətlər 5 saylı qeyddə açıqlanır.

Aşağıdakı cədvəldə Təşkilat tərəfindən əldə edilən girovun növünə görə təhlil edilən müştərilərə verilmiş kreditlərin balans dəyəri göstərilir:

| | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| Zəmanətlərlə təmin edilmiş kreditlər | 115,303 | 92,946 |
| İnventarların girov qoyulması ilə təmin edilmiş kreditlər | 24,686 | 8,085 |
| Təsərrüfat vasitələri ilə təmin olunmuş kreditlər | 8,503 | 6,317 |
| Nəqliyyat vasitələri ilə təmin olunmuş kreditlər | 4,806 | 3,785 |
| Daşınmaz əmlakla təmin olunmuş kreditlər | 4,613 | 2,404 |
| Avadanlığın girov qoyulması ilə təmin olunmuş kreditlər | 2,735 | 2,214 |
| Qızılın girov qoyulması ilə təmin olunmuş kreditlər | 927 | 1,701 |
| | 161,573 | 117,452 |
| Çıxılsın: Dəyərsizləşmə zərərləri üçün ehtiyat | (743) | (891) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **160,830** | **116,561** |

| | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| **İqtisadi sektorlar üzrə təhlil:** | | |
| Kənd təsərrüfatı | 85,683 | 63,250 |
| Ticarət | 39,625 | 31,062 |
| Xidmət | 32,201 | 20,400 |
| İstehsal | 3,102 | 2,098 |
| Digər | 962 | 642 |
| | 161,573 | 117,452 |
| Çıxılsın: Dəyərsizləşmə zərərləri üçün ehtiyat | (743) | (891) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **160,830** | **116,561** |

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə bütün kreditlər Azərbaycan Respublikasında fəaliyyət göstərən müştərilərə verilmişdir ki, bu da bir ölkə daxilində əhəmiyyətli coğrafi təmərküzləşməni əks etdirir.

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə müştərilərə verilmiş kreditlərə şərtləri yenidən razılaşdırımış müvafiq olaraq 511 min AZN və 185 min AZN məbləğində kreditlər daxildir. Əks təqdirdə bu kreditlər vaxtı keçmiş və ya dəyərsizləşmiş olardı.

Aşağıdakı cədvəldə müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi təhlilinin icmalı verilmişdir:

| | 31 dekabr 2013-cü il | | | 31 dekabr 2012-ci il | | |
|---|---|---|---|---|---|---|
| | Ehtiyatdan əvvəl balans dəyəri | Dəyərsizləmə zərərləri üçün ehtiyat | Balans dəyəri | Ehtiyatdan əvvəl balans dəyəri | Dəyərsizləmə zərərləri üçün ehtiyat | Balans dəyəri |
| Birlikdə dəyərsizləşmiş olaraq müəyyən edilən müştərilərə verilmiş kreditlər | 539 | 5 | 544 | 234 | (115) | 119 |
| Dəyərsizləşməmiş kreditlər | 161,034 | (748) | 160,286 | 117,218 | (776) | 116,442 |
| **Cəmi** | **161,573** | **(743)** | **160,830** | **117,452** | **(891)** | **116,561** |

## 13. ƏMLAK, AVADANLIQ VƏ QEYRI-MADDI AKTIVLƏR

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər aşağıdakılardan ibarətdir:

| | İcarədəki əmlakın təkmilləşdirilməsi | Mebel və ofis avadanlığı | Kompüter avadanlığı | Nəqliyyat vasitələri | Digər aktivlər | Cəmi əmlak və avadanlıq | Qeyri-maddi aktivlər |
|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyər ilə** | | | | | | | |
| 1 yanvar 2012-ci il | 13 | 1,064 | 717 | 120 | 104 | 2,018 | 3,542 |
| Əlavələr | - | 317 | 312 | 126 | 145 | 900 | 30 |
| Silinmələr | - | (31) | (97) | - | (6) | (134) | - |
| Xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklərin təsiri | - | (2) | (2) | - | 1 | (3) | (7) |
| 31 dekabr 2012-ci il | **13** | **1,348** | **930** | **246** | **244** | **2,781** | **3,565** |
| Əlavələr | 2 | 131 | 129 | 6 | 202 | 470 | 75 |
| Silinmələr | (15) | (89) | (104) | (11) | (4) | (223) | - |
| 31 dekabr 2013-cü il | **-** | **1,390** | **955** | **241** | **442** | **3,028** | **3,640** |
| **Yığılmış amortizasiya və dəyərsizləşmə** | | | | | | | |
| 1 yanvar 2012-ci il | 13 | 494 | 503 | 101 | 10 | 1,121 | 1,680 |
| Amortizasiya xərci | - | 187 | 137 | 24 | 31 | 379 | 676 |
| Silinmələr üzrə ləğv edilmiş | - | (25) | (36) | - | (2) | (63) | - |
| Xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklərin təsiri | - | (1) | - | - | - | (1) | (3) |
| 31 dekabr 2012-ci il | **13** | **655** | **604** | **125** | **39** | **1,436** | **2,353** |
| Amortizasiya xərci | 2 | 204 | 181 | 26 | 33 | 446 | 767 |
| Silinmələr üzrə ləğv edilmiş | (15) | (80) | (60) | (10) | (3) | (168) | - |
| Xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklərin təsiri | - | (1) | - | - | - | (1) | - |
| 31 dekabr 2013-cü il | **-** | **778** | **725** | **141** | **69** | **1,713** | **3,120** |
| **Xalis qalıq dəyəri** | | | | | | | |
| **31 dekabr 2013-cü il tarixinə** | **-** | **612** | **230** | **100** | **373** | **1,315** | **520** |
| **31 dekabr 2012-ci il tarixinə** | **-** | **693** | **326** | **121** | **205** | **1,345** | **1,212** |

31 dekabr 2013 və 2012-ci il tarixlərinə əmlak və avadanlığa müvafiq olaraq 586 min AZN və 749 min AZN məbləğində tam amortizasiya olunmuş aktivlər daxil idi.

## 14. DİGƏR AKTİVLƏR

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| **Digər maliyyə aktivləri** | | |
| Digər əməliyyatlar üzrə debitor borcları | 161 | 100 |
| | 161 | 100 |
| **Digər qeyri-maliyyə aktivləri** | | |
| Qabaqcadan ödənilmiş icarə haqqı | 168 | 232 |
| Kənar təşkilatlara qabaqcadan ödənişlər | 335 | 231 |
| Mənfəət vergisindən başqa qabaqcadan ödənilmiş vergilər | 48 | 66 |
| Digər avanslar | 270 | 44 |
| **Cəmi digər öhdəliklər** | **982** | **673** |

## 15. MƏNFƏƏT VƏ YA ZƏRƏR HESABLARINDA ƏDALƏTLİ DƏYƏRLƏ QEYD EDİLMİŞ MALİYYƏ ÖHDƏLİKLƏRİ

Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd edilmiş maliyyə öhdəlikləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| İlk olaraq mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd edilmiş maliyyə öhdəlikləri: | | |
| Derivativ maliyyə alətləri | 990 | 79 |
| **Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd olunan cəmi maliyyə öhdəlikləri** | **990** | **79** |

Derivativ maliyyə alətləri haqqında məlumat aşağıda təqdim olunur.

| | 31 dekabr 2013-cü il | | | 31 dekabr 2012-ci il | | |
|---|---|---|---|---|---|---|
| | Təqdim edilən məbləğ | Ədalətli dəyər | | Təqdim edilən məbləğ | Ədalətli dəyər | |
| | | Aktiv | Öhdəlik | | Aktiv | Öhdəlik |
| **Xarici valyuta müqavilələri** | | | | | | |
| Forvard müqavilələri | | | | | | |
| Alış | 7,845 | - | - | 7,065 | - | - |
| Satış | 8,835 | - | 990 | 7,144 | - | 79 |
| **Cəmi derivativ maliyyə alətləri** | | - | 990 | | - | 79 |

Forvard müqavilələri üzrə hesablaşma xalis əsasda aparılır.

## 16. DİGƏR BORC ALINMIŞ VƏSAİTLƏR

Digər borc alınmış vəsaitlər aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2013-cü il** | **31 dekabr 2012-ci il** |
|---|---|---|
| ResponsAbility SICAV Lux | 17,816 | 21,165 |
| Symbiotics | 14,138 | 10,254 |
| Developing World Markets | 12,205 | 11,973 |
| Avropa Yenidənqurma və İnkişaf Bankı | 9,995 | 12,117 |
| Microfinance Enhancement Facility | 9,894 | 9,849 |
| Triodos Investment | 9,461 | 8,433 |
| BlueOrchard | 9,440 | 4,323 |
| BSTDB | 7,790 | - |
| EFSE | 7,788 | - |
| Incofin | 5,839 | 4,850 |
| Oikocredit | 4,239 | 2,247 |
| Deutsche Bank (GlobalCMC) | 3,932 | - |
| RabitaBank ASC | 3,699 | - |
| Triple Jump B.V. | 3,153 | - |
| Credit Suisse | 3,124 | 1,325 |
| Beynəlxalq Maliyyə Korporasiyası ("IFC") | 2,773 | 4,619 |
| Asn-Novib Fonds | 1,976 | 4,215 |
| Dual Return Fund S.I.C.A.V | 791 | - |
| Buraxılmış borc qiymətli kağızları | 10,534 | - |
| **Cəmi digər borc alınmış vəsaitlər** | **138,587** | **95,370** |

Təşkilat bir sıra maliyyə institutlarından borclar almışdır və bu səbəbdən müəyyən maliyyə şərtlərini yerinə yetirmək öhdəliyi daşıyır. Yuxarıda qeyd olunan maliyyə institutları və banklar tərəfindən qoyulmuş müəyyən maliyyə şərtərinin yeninə yetirilməməsi borc götürülmüş vəsaitlərin vaxtından əvvəl geri ödənilməsi tələbi ilə nəticələnə bilər.

31 dekabr 2013-cü il tarixinə Təşkilat heç bir maliyyə şərtlərini pozmamışdır.

31 dekabr 2012-ci il tarixinə Təşkilat Beynəlxalq Maliyyə Korporasiyası ilə bağlanmış bir borc müqaviləsinin şərtlərini pozmuşdur.

Dollarla bağlı vahid valyuta mübadiləsi üzrə risk əmsalının bu müqavilə tarixindən etibarən 6 ay ərzində mənfi 20%dən az (yəni daha mənfi olması) və 30%dən çox olmaması və bundan sonrakı istənilən dövrdə mənfi 15%dən az (yəni daha mənfi olması) və 30%dən çox olmaması.

Bu maliyyə şərtinin pozulması nəticəsində 31 dekabr 2012-ci il tarixinə müddətli borc öhdəliklərinin Cəmi 4,619 min AZN təşkil etmişdir. Müqavilələrə əsasən maliyyə şərtləri pozulduqda vaxtı çatmış borclar və/və ya tələb əsasında ödənilməli vəsaitlər üçün ehtiyat yaradılmalıdır. 7 mart 2013-cü ildə Təşkilat maliyyə şərtinin pozulması nəticəsində borcların geri tələb edilməməsini kreditorla uğurlu şəkildə razılaşdırmış lakin, 31 deakbr 2012-ci il tarixinə Beynəlxalq Maliyyə Korporasiyasından alınmış qalıq borc öhdəliklərini maliyyə risklərinin idarə edilməsi haqqında 24 saylı qeyddə ödəmə müddətləri üçün risk cədvəlində tələb edilən vəsaitlər kateqoriyasında yenidən təsnifləşdirmişdir.

Bu öhdəliklər amortizasiya olunmuş dəyərlə ölçülür.

## 17. DİGƏR ÖHDƏLİKLƏR

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2013-ci il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| **Digər maliyyə öhdəlikləri:** | | |
| Ödənilməli royalti | 761 | 801 |
| Hesablanmış vəsaitlər | 274 | 688 |
| İşçilərə ödənilməli vəsaitlər | 1,519 | 429 |
| Təşkilatlar arası xidmət haqqı üzrə kreditor borclar | 380 | 309 |
| Qrantlar üzrə öhdəlik | 164 | 181 |
| Digər | 294 | 222 |
| | 3,392 | 2,630 |
| **Cəmi digər qeyri-maliyyə öhdəlikəri:** | | |
| Mənfəət vergisindən başqa vergilər | 406 | 731 |
| **Cəmi digər öhdəliklər** | **3,798** | **3,361** |

Təşkilat FINCA Microfinance Cooperatief U.A Təşkilatinə lisenziya ilə bağlı royalti ödənişləri etməlidir. Royalti haqları hər ayın əməliyyat gəlirinin faizi kimi hesablanır.

## 18. SUBORDİNASİYALI BORCLAR

Subordinasiyalı borclar aşağıdakılardan ibarətdir:

| | Valyuta | Ödəmə tarixi | Faiz dərəcəsi | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|---|---|---|
| FINCA Microfinance Fund B.V.-dan subordinasiyalı borclar | ABŞ dolları | 5 noyabr 2016-cı il | 12.54% | 5,577 | 5,572 |
| **Cəmi subordinasiyalı borc** | | | | **5,577** | **5,572** |

Təşkilat müflisləşdikdə və ya ləğv edildikdə bu borcun ödənilməsi Təşkilatın bütün digər kreditorlar qarşısında öz öhdəliklərini yerinə yetirməsindən asılı olacaq.

Təşkilat yuxarıda açıqlanan subordinasiyalı borc ilə bağlı maliyyə şərtlərini yerinə yetirmək öhdəliyinə malikdir. Bu şərtlərə razılaşdırılmış əmsallar, borcun səhmdar kapitalına nisbəti və digər maliyyə göstəriciləri daxildir. Təşkilat 31 dekabr 2013 və 2012-ci il tarixlərinə bitən illər ərzində bu şərtlərin hər hansı birini pozmamışdır.

## 19. SƏHMDAR KAPİTALI

Təşkilatin təsdiq olunmuş və ödənilmiş səhmdar kapitalı 4 min AZN təşkil edir və bu rəqəm 1999-cu ildən dəyişməmişdir.

2013-cü ildə Təşkilatin səhmdarı olan "FINCA Mikrofinance Cooperatief UA" səhmdar kapitalının artırılması üçün 2,902 min AZN məbləğində sərmayə qoymuşdur. 31 dekabr 2013-cü il tarixinə Təşkilat səhmdar kapitalını qeydiyyatdan keçirmədiyindən bu investisiya əlavə ödənilmiş kapital kimi açıqlanmışdır.

31 dekabr 2013-cü il tarixinə bitən il ərzində 2012-ci ilin nəticələri ilə bağlı olan 2,790 min AZN məbləğində dividendlər Təşkilat tərəfindən elan olunmuş və ödənilmişdir.

31 dekabr 2012-ci il tarixinə bitən il ərzində 2011-ci ilin nəticələri ilə bağlı 4,749 min AZN məbləğində dividendlər Təşkilat tərəfindən elan olunmuş və ödənilmişdir.

## 20. TƏƏHHÜDLƏR, ŞƏRTİ AKTIV VƏ ÖHDƏLİKLƏR

Adi fəaliyyət zamanı Təşkilat müştərilərin ehtiyaclarını qarşılamaq üçün balansdankənar riskləri olan maliyyə alətləri üzrə müqavilə tərəfi qismində çıxış edir. Dəyişkən kredit riski dərəcəsini nəzərdə tutan bu alətlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir.

Təşkilat balansda qeyd edilən əməliyyatlar halında olduğu kimi, balansdankənar öhdəlikləri üzərinə götürərkən eyni kredit nəzarət və idarəetmə siyasətlərini tətbiq edir.

31 dekabr 2013 və 2012-ci il tarixlərinə şərti öhdəliklər aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| **Şərti öhdəliklər və kredit öhdəlikləri** | | |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | 160 | 153 |
| **Cəmi şərti öhdəliklər və kredit öhdəlikləri** | **160** | **153** |

Təşkilat tərəfindən müştərilərə kredit xətti çərçivəsində kreditlərin verilməsi fərdi qaydada təsdiq olunacaq və borcalanın maliyyə nəticələri, borca xidmət qabiliyyəti və digər şərtlərdən asılı olaraq. 31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə istifadə edilməmiş belə kredit xətləri müvafiq olaraq 160 min AZN və 153 min AZN təşkil etmişdir.

***Məhkəmə prosesləri*** – Təşkilat vaxtaşırı adi fəaliyyəti müddətində müştərilər və müqavilə tərəflərinin irəli sürdüyü iddialarla üzləşir. Rəhbərlik belə düşünür ki, heç bir yığılmamış maddi itkilər baş verməyəcək və müvafiq olaraq bu maliyyə hesabatlarında ehtiyatlar nəzərdə tutulmamışdır.

***Vergiqoyma*** **–** Azərbaycan Respublikasının ticarət, o cümlədən vergi qanunvericiliyi birdən çox təfsirlərə yol verə bilər. Bundan başqa, biznes fəaliyyəti ilə əlaqədar olaraq vergi orqanlarının öz mülahizələrinə görə qərar verməlİ riski də mövcuddur. Təşkilat rəhbərliyinin biznes fəaliyyəti ilə əlaqədar öz mülahizələrinə əsaslanan müəyyən mövqeyi vergi orqanları tərəfindən birmənalı qarşılanmadıqda, Təşkilat üçün əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

Belə qeyri-müəyyənlik halları maliyyə alətlərinin qiymətləndirilməsi, dəyərsizləşmə üzrə zərər üçün ehtiyatların qiymətləndirilməsi və sövdələşmələrin bazar qiymətinin müəyyənləşdirilməsi ilə bağlı ola bilər. Bundan başqa, belə qeyri-müəyyənlik vergiyə cəlb olunan mənfəətin natamam hesablanması olaraq ehtiyat üzrə müvəqqəti fərqin qiymətləndirilməsi, habelə müştərilərə verilmiş kreditlər və debitor borcları üzrə dəyərsizləşmə zərəri üçün ehtiyatların geri qaytarılması ilə də bağlı ola bilər. Təşkilatın rəhbərliyi ödəniləcək vergi məbləğlərinin hesablandığını düşünür, buna görə də, maliyyə hesabatlarında heç bir ehtiyat nəzərdə tutulmamışdır.

Ümumiyyətlə, vergi ödəyiciləri audit ilindən əvvəlki üç təqvim ili ərzində vergi auditindən keçməlidirlər. Lakin, tamamlanmış audit yoxlamaları yuxarı səviyyəli vergi müfəttişlərinin aşağı dərəcəli vergi müfəttişləri tərəfindən əldə olunan vergi auditinin nəticələrini yoxlamaq məqsədilə həyata keçirilən sonrakı əlavə audit yoxlamalarının olması ehtimalını istisna etmir. Cinayət işinin araşdırılması zamanı iddia müddəti məhkəmənin qərarına əsasən yeddi ilədək uzadıla bilər.

***Fəaliyyət mühiti*** – Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrin bazar mühiti inkişaf etmiş ölkələrlə müqayisədə müxtəlif risklərə, o cümlədən iqtisadi, siyasi, sosial, hüquqi və qanunvericilik ilə bağlı risklərə daha çox məruz qalırlar. Azərbaycanda biznes fəaliyyətinə təsir edən qanun və qaydalar sürətlə dəyişməkdədir, vergi qanunvericiliyi və tənzimləyici baza isə müxtəlif formada şərh olunur. Azərbaycanın gələcək iqtisadi kursuna dövlət tərəfindən qəbul edilən maliyyə və monetar siyasətlər, eləcə də hüquq, idarəetmə və siyasi mühitdəki dəyişikliklər mühüm təsir göstərir.

Azərbaycanın maliyyə və kapital bazarlarına 2009-cu və 2010-cu illərdə mənfi təsir göstərmiş dünya maliyyə böhranı səngimiş, Azərbaycanın iqtisadiyyatı isə 2011, 2012 və 2013-ci illərdə müşahidə olunan inkişaf tempini bərpa etmişdir. Buna baxmayaraq, əhəmiyyətli iqtisadi qeyri-müəyyənliklər hələ də qalmaqdadır. Dünya maliyyə sistemlərində sistemli risklərdən, o cümlədən kredit mühitində müşahidə olunan imkanların daralması prosesindən, yaxud da neft və qaz qiymətlərinin enməsindən irəli gələn mənfi dəyişikliklər ölkə iqtisadiyyatının inkişafını ləngidə və ya tənəzzülə uğrada, Təşkilatın kapital vəsaitləri və onun dəyərinə çıxış imkanlarına, ümumilikdə isə, onun biznes fəaliyyəti, əməliyyat nəticələri, maliyyə vəziyyəti və gələcək perspektivlərinə mənfi təsir göstərir.

Azərbaycan külli miqdarda neft və qaz məhsullarının istehsalçısı və ixracatçısı olduğuna görə, ölkə iqtisadiyyatı, xüsusi olaraq, 2013-cü və 2012-ci illərdə dünya bazarlarında əhəmiyyətli dərəcədə dəyişkən olmuş neft və qaz qiymətlərinə qarşı həssasdır.

## 21. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Təşkilat ilə digər əlaqəli tərəflər arasında əməliyyatların təfərrüatları aşağıda açıqlanır

| | **31 dekabr 2013-cü il** | | **31 dekabr 2012-ci il** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatı müddəası üzrə Cəmi kateqoriya** | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatı müddəası üzrə Cəmi kateqoriya** |
| Digər aktivlər | | 982 | | 673 |
| *- Ana müəssisə* | 122 | | 100 | |
| Digər öhdəliklər | | 3,798 | | 3,361 |
| *- Ana müəssisə* | 1,793 | | 1,328 | |

Təşkilatın əsas idarəedici heyətinə edilmiş ödənişlər aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2013-cü il tarixində bitən il** | | **31 dekabr 2012-ci il tarixində bitən il** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatı müddəası üzrə Cəmi kateqoriya** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatı müddəası üzrə Cəmi kateqoriya** |
| **Əsas idarə heyətinə ödənişlər** | | | | |
| *- işçilərə qısamüddətli ödənişlər* | 891 | 30,035 | 801 | 22,481 |
| **Cəmi** | **891** | **30,035** | **801** | **22,481** |

31 dekabr 2013-cü və 2012-ci il tarixlərinə bitən illər üzrə mənfəət və ya zərər haqqında hesabatda əlaqəli tərəflərlə əməliyyatlar üzrə aşağıdakı məbləğlər tanınmışdır:

| | 31 dekabr 2013-cü il tarixində bitən il | | 31 dekabr 2012-ci il tarixində bitən il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatı müddəası üzrə Cəmi kateqoriya** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatı müddəası üzrə Cəmi kateqoriya** |
| İnzibati və digər əməliyyat xərcləri | | 30,035 | | 22,481 |
| *- Ana müəssisə* | 4,623 | | 2,642 | |

## 22. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

MHBS-ı ədalətli dəyəri qiymətləndirmə tarixində bazar iştirakçıları arasındakı əməliyyat üzrə aktivin satılması üçün alınmış və ya öhdəliyin ötürülməsi üçün ödənilmiş qiymət kimi müəyyən edir.

Təşkilatın maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri dövri olaraq ədalətli dəyərlə ölçülür.

Təşkilatın bəzi maliyyə aktivləri hvə maliyyə öhdəlikləri hər hesabat dövrünün sonunda ədalətli dəyərlə qiymətləndirilir. Aşağıdakı cədvəl sizə bu maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin müəyyən edilməsi üsulları (xüsusilə, qiymətləndirmə vasitələri və istifadə olunan materiallar) haqqında məlumat verir.

| Maliyyə aktivləri/ Maliyyə öhdəlikləri | Ədalətli dəyəri | | Ədalətli dəyər ierarxiyası | Qiymətləndirmə vasitələri və əsas məlumatlar | Mühüm müşahidə olunmayan məlumat(lar) | Müşahidə olunmayan məlumatın ədalətli dəyərlə əlaqəsi |
|---|---|---|---|---|---|---|
| | **31 dekabr 2013-cü il** | **31 dekabr 2012-ci il** | | | | |
| Derivativ maliyyə öhdəlikləri | 990 | 79 | Səviyyə 2 | Diskontlaşdırılmış pul daxilolmaları. Gələcək pul daxilolmaları forvard valyuta məzənnələri əsasında (hesabat dövrünün sonunda müşahidə olunan forvard valyuta məzənnələri) və müxtəlif tərəflərin kredit riskini əks etdirən dərəcə ilə diskontlaşdırılmış müqavilə üzrə forvard dərəcələri əsasında hesablanır. | Uyğun deyil | Uyğun deyil |

Dövr ərzində 1-ci və 2-ci səviyyə arasında köçürmələr olmamışdır.

**Dövri olaraq ədalətli dəyərlə ölçülməyən maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri (lakin ədalətli dəyər açıqlamaları tələb olunur)**

Aşağıdakı cədvəldə göstərildiyi kimi, rəhbərlik hesab edir ki, maliyyə hesabatlarında tanınan maliyyə aktivlərinin və öhdəliklərinin balans dəyərləri təxminən onların ədalətli dəyərinə uyğundur.

| | 31 dekabr 2013-cü il | | 31 dekabr 2012-ci il | |
|---|---|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13,495 | 13,495 | 7,224 | 7,224 |
| Banklardakı müddətli depozitlər | 3,959 | 3,959 | 2,634 | 2,634 |
| Müştərilərə verilmiş kreditlər | 160,830 | 160,830 | 116,561 | 116,561 |
| Digər maliyyə aktivləri | 161 | 161 | 100 | 100 |
| CƏMI MALİYYƏ AKTİVLƏRİ | **178,445** | **178,445** | **126,519** | **126,519** |
| Digər borc alınmış vəsaitlər | 138,587 | 138,587 | 95,370 | 95,370 |
| Digər maliyyə öhdəlikləri | 3,392 | 3,392 | 2,630 | 2,630 |
| Subordinasiyalı borc | 5,577 | 5,577 | 5,572 | 5,572 |
| CƏMI MALİYYƏ ÖHDƏLİKLƏRİ | **147,556** | **147,556** | **103,572** | **103,572** |

| | | | 31 dekabr 2013-cü il | |
|---|---|---|---|---|
| | **Səviyyə1** | **Səviyyə 2** | **Səviyyə 3** | **Cəmi** |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | 13,495 | 13,495 |
| Banklardakı müddətli depozitlər | - | - | 3,959 | 3,959 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 160,830 | 160,830 |
| Digər maliyyə aktivləri | - | - | 161 | 161 |
| CƏMI MALİYYƏ AKTİVLƏRİ | - | - | **178,445** | **178,445** |
| Digər borc alınmış vəsaitlər | - | - | 138,587 | 138,587 |
| Digər maliyyə öhdəlikləri | - | - | 3,392 | 3,392 |
| Subordinasiyalı borc | - | - | 5,577 | 5,577 |
| CƏMI MALİYYƏ ÖHDƏLİKLƏRİ | - | - | **147,556** | **147,556** |

Yuxarıda qeyd edilən 2-ci və 3 cü Səviyyəyə daxil edilmiş maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri, diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti təhlilinə əsasən və tərəflərin kredit riskini əks etdirən diskont dərəcəsi üzrə mühim məlumatlardan istifadə etməklə ümumi qəbul edilmiş qiymətqoyma modellərinə uyğun olaraq müəyyən edilmişdir.

## 23. KAPİTAL RİSKİNİN İDARƏEDİLMƏSİ

Təşkilat borc və kapital balansının optimallaşdıraraq səhmdarlarının gəlirlərini artırmaqla yanaşı onun fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərə biləcəyini təmin etmək məqsədilə öz kapitalının idarə edilməsini həyata keçirir.

Hazırda Azərbaycan Respublikasının Mərkəzi Bankı bank olmayan kredit təşkilatları üçün heç bir kapital tələbləri qoymamışdır. Təşkilatın kapitalının idarə edilməsi ilə bağlı rəhbərliyin aşağıdakı məqsədləri vardır: Təşkilatın fasiləsiz fəaliyyətinin təmin edilməsi habelə kreditorların və investorların maliyyə şərtlərini yerinə yetirmək məqsədilə vəsaitlərin saxlanması. Bu Təşkilatın İdarə Heyətinin Sədri və mühasib tərəfindən yoxlanılaraq imzalanmış müvafiq hesablamaları əks etdirən aylıq hesabatlar əsasında planlaşdırılmış və faktiki məlumat ilə bağlı gündəlik icra olunur.

## 24. RİSKİN İDARƏ EDİLMƏSİ QAYDALARI

Risklərin idarə edilməsi Təşkilatın bankçılıq fəaliyyəti üçün mühim hesab edilir və Təşkilatın əməliyyatlarının əsas hissəsini təşkil edir. Təşkilatın əməliyyatlarına xas olan əsas risklər aşağıdakılarla bağlıdır:

- Kredit riskləri;
- Likvidlik riski;
- Bazar riski.

Təşkilat effektiv və səmərəli riskin idarəedilməsi prosesinin tətbiqinin önəmli olması faktını qəbul edir. Buna nail olmaq üçün Təşkilat riskin idarəedilməsi çərçivəsini yaratmışdır ki, bunun əsas məqsədi Təşkilatı risklərdən qorumaqdan və Təşkilata qarşında qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdan ibarətdir.

### *Riskin idarə edilməsi strukuru*

İdarə Heyəti risklərin müəyyən edilməsi və onlara nəzarət üçün əsas məsul tərəfdir, lakin ayrı-ayrı qurumlar risklərin idarə edilməsinə və onların monitorinqinə görə məsuliyyət daşıyır. İdarə Heyəti ümumi risklərin idarə edilməsi yanaşmasına və risk strategiyalarının və prinsiplərinin təsdiq edilməsinə cavabdehdir.

Audit Komitəsi Daxili Audit tərəfindən təqdim olunmuş risk məsələləri ilə bağlı hesabatları rüblük əsasda nəzərdən keçirir və aşkar olunmuş məsələrin həlli üçün rəhbərlik tərəfindən verilən təlimatlara əməl edir. Həmçinin Audit Komitəsi kənar auditorlar tərəfindən aşkar olunmuş məsələrin müzakirəsində də iştirak edir.

Riskin idarə edilməsi sahəsində əlavə tədbirlərin görülməsi üçün, Təşkilat daxilində daimi işçi komitələri yaradılır:

Aktiv və öhdəliklərin İdarə edilməsi Komitəsi (“AÖİK”) – Komitə növbəti 12 ay üçün proqnozlaşdırılan likvidlik göstəricilərini hər ay nəzərdən keçirir. Likvidliklə bağlı proqnozlar kreditlərin ödənilməsi səviyyələrinə, gözlənilən maliyyələşdirmə planlarına və digər gözlənilən pul vəsaitlərinin hərəkətlərinə əsaslanır. AÖİK yeni kreditlərlə bağlı qərarlar qəbul edir, banklarla və maliyyə institutları ilə əməliyyatlar üçün açıq valyuta mövqeyini və müqavilə tərəflərinin hədlərini müəyyən edir, kreditorlarla maliyyə şərtlərininə nəzarət edir, aktivlərin və öhdəliklərin ödəmə müddətləri ilə bağlı məsələləri təhlil edir və fərqlərin aradan qaldırılması üçün Maliyyə Departamentinə tövsiyələr verir.

Maliyyə Departamenti Təşkilatın aktiv və öhdəliklərinin gündəlik idarə edilməsinə, Təşkilatın likvidlik mövqeyinin hesablanması və planlaşdırılmasına, pul vəsaitləri və onların ekvivalentlərinin Təşkilatın əməliyyat bölmələri arasında yenidən bölüşdürülməsinə cavabdehdir. Maliyyə Departamenti AÖİK tərəfindən müəyyən olunmuş hədlərin və likvidlik əmsallarının tətbiqinə, habelə AÖİK tərəfindən likvidlik riskinin optimallaşdırılması üçün qəbul edilmiş qərarların həyata keçirilməsinə nəzarət edir.

Daxili Audit riskin idarə edilməsi prosesinin müstəqil yoxlanmasını həyata keçirir, aşkar olunan çatışmazlıqlar barədə rəhbərliyi məlumatlandırır və riskin idarə edilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verir.

Riskin idarə edilməsi metodunun seçilməsi Təşkilatın maliyyə vəziyyətinə mənfi təsir göstərə biləcək risklərin əhəmiyyətliliyini və ya mümkünlüyünü müəyyən edən risk göstəricilərindən asılıdır. Təşkilat hər bir riski ayrı-ayrılıqda təhlil edərək qiymətləndirməkdən əlavə kumulyativ riskləri də müəyyən edir. Beləliklə də, aşağıdakı riskin idarə edilməsi metodları tətbiq olunur:

- Ödəmə müddəti ilə bağlı faiz dərəcəsi riski və aktivlərin və öhdəliklərin faiz dərəcəsi üzrə çatışazlıqların təhlili,
- Xarici və yerli valyuta ilə ödənişlər üzrə likvidlik riski ilə bağlı çatışmazlıqların təhlili; likvidlik əmsallarının təhlili, likvidlik ehtiyatının müəyyən edilməsi;

- Xarici valyuta ilə ödənişlər üzrə valyuta riski ilə bağlı çatışmazlıq təhlili, valyuta mövqeyinin təhlili;
- Kredit portfelinin kredit riski təhlili və kredit riski əmsalları;
- Təşkilatın maliyyə vəziyyətinə təsir edən bütün əməliyyatlar üçün əməliyyat riski, tətbiq edilən əməliyyatların tamamlanması üçün lazımı fəaliyyətlərin ayrılmasını (başlanma, icra etmə, və nəzarət) təmin edən sistemlər

Riskin ölçülməsi qaydaları Təşkilatın fəaliyyəti zamanı yarana biləcək ehtimal olunan zərəri əks etdirir. Hər ay ayrı-ayrı risklərin təhlili əsasında Maliyyə departamenti risklərin hazırkı vəziyyəti və əsas göstəricilər barədə nəticələr hazırlayır.mXüsusilə də, hər ay AÖİK iclasında faiz dərəcəsi, likvidlik, valyuta və digər bazar riskləri hesabat olunur.

Əməliyyat risklərinin statusu (əməliyyat - texnoloji, hüquqi, strateji, nüfuzla bağlı risk) haqqında məlumat da həmçinin İdarə Heyətinə hesabat olunur. Bu hesabatlar İdarə Heyətinin və Audit Komitəsinin keçirilən rüblük iclaslarında təhlil edilir.

***Risk nəticələrinin zəiflədilməsi***

Təşkilat risklərin azaldılması üçün başqaları ilə yanaşı aşağıdakı metodlardan istifadə edir:

- Kredit risklərinin azaldılması üçün zəmanətlərin və girovların alınması;
- Diversifikasiya (müxtəliflik) bir-biri ilə əlaqəsi olmayan aktivlərin seçilməsi.

**Kredit riski**

Təşkilat kredit riskinə məruz qalır ki, bu da maliyyə aləti üzrə bir tərəfin öz öhdəliklərini yerinə yetirə bilməməməsi və bunun digər tərəfə maliyyə zərərinin dəyməsi ilə nəticələnməsindən yaranan riskdir.

Rəhbərlik kredit riskinin idarə edilməsi öhdəliyini Kredit Departamentinə həvalə etmişdir ki, o da aşağıdakılara cavabdehdir:

- Şöbələrlə məsləhətləşməklə kredit siyasətlərinin formalaşdırılması, girov tələbləri, kreditin qiymətləndirilməsi, riskin dərəcələrə bölünməsi və məruzə edilməsi, sənədləşmə və hüquqi prosedurlar habelə hüquqi prosedurlar və qanunla müəyyən olunmuş normativ tələblərə əməl olunması.
- Kredit müqavilələrinin təsdiqi və yenilənməsi üçün təsdiqetmə strukturunun yaradılması. Təsdiqləmə hədləri şöbələrin kredit heyəti üzrə bölüşdürülmüşdür. Daha iri həcmli kredit müqavilələri Kredit Departamenti və ya İdarə Heyəti tərəfindən, hansı uyğun olarsa, təsdiqetməni tələb edir.
- Kredit riskinin yoxlanması və qiymətləndirilməsi. Kredit Departamenti aidiyyatı şöbələr tərəfindən müştərilərə təqdim edilməzdən əvvəl müəyyən olunmuş hədləri aşan bütün kredit risklərini qiymətləndirir. Müqavilələrin yenilənməsi və təhlili eyni yoxlama prosesindən keçməlidir.
- Qarşı tərəflərin coğrafi və sənaye (kreditlər və avanslar üçün) riskləri cəmləşməsinin təsirini məhdudlaşdırmaq.
- Təşkilatın üzləşdiyi maliyyə itkisi riskinin dərəcəsinə görə riskləri kateqoriyalara bölmək və rəhbərliyin diqqətini eyni vaxtda baş verən risklərə yönəltmək məqsədilə risk dərəcələnməsi sisteminin yaradılması və saxlanması. Xüsusi kredit risklərinə qarşı dəyərsizləşmə ehtiyatlarının tələb oluna biləcəyini müəyyən etmək üçün risklərin dərəcələrə bölünməsi sistemindən istifadə olunur. Risklərin dərəcələrə bölünməsinin hazırki strukturu gecikmə riskinin müxtəlif dərəcələrini və risklərin azaldılması üzrə girov yaxud digər vasitələrin olmasını əks etdirən bir neçə dərəcədən ibarətdir. Risk dərəcələrinin müəyyən edilməsinə görə məsuliyyət müvafiq olaraq baş təsdiqedici direktorun komitənin üzərinə düşür. Risk dərəcələri müntəzəm olaraq nəzərdən keçirilir.

- Təşkilat üzrə kredit riskinin idarə olunmasında ən qabaqcıl təcrübəni təşviq etmək üçün şöbələrə məsləhət, təlimat, mütəxəssis səriştəsinin verilməsi.

Hər bir filialdan Təşkilatın kredit siyasəti və prosedurlarını Kredit Şöbəsinin verdiyi kredit təsdiqləmə səlahiyyətləri çərçivəsində tətbiq etmək tələb olunur. Hər bir filialın kredit ilə əlaqədar bütün məsələləri Təşkilatın rəhbərliyi və kredit şöbəsinə məruzə edən meneceri vardır. Hər bir filial ona aid kredit portfelinin keyfiyyəti və fəaliyyətinə habelə mərkəzdən təsdiqlənməli risklər də daxil olmaqla, portfelindəki bütün kredit risklərinə nəzarətin təmin edilməsinə görə məsuliyyət daşıyır.

Kreditlərin ayrılması üzrə öhdəliklər kredit, zəmanət və ya akkreditiv formasında çıxış edən istifadə edilməmiş kredit vəsaitlərindən ibarətdir. Balansdankənar maliyyə alətləri üzrə kredit riski müqavilə tərəfinin müqavilə şərtləri və müddəalarına əməl edə bilməməsi nəticəsində zərərin baş verməsi mümkünlüyü kimi müəyyən olunur. Kreditin ayrılması öhdəliyi üzrə kredit riskinə gəldikdə isə, Təşkilat realizə edilməmiş belə öhdəliklərin ümumi məbləğinə bərabər potensial zərər riski ilə üzləşir. Lakin, zərərin ehtimal edilən məbləği Cəmi istifadə edilməmiş kredit öhdəliklərindən azdır. Təşkilat maliyyə vəziyyəti haqqında hesabat və maliyyə alətləri halında olduğu kimi, riskin təsir nəticələrinin yumşaldılması üçün limitləri və cari monitorinq prosesini tətbiq etməklə kreditlərin verilməsinin təsdiqlənməsi proseduruna əsaslanan eyni kredit siyasətini şərti öhdəliklərə də qarşı istifadə edir. Təşkilat balansdankənar uçotda əks etdirilən şərti öhdəliklərin ödəniş müddətinə qədər dövrü nəzarətdə saxlayır, çünki daha uzunmüddətli öhdəliklər qısamüddətli kredit öhdəlikləri ilə müqayisədə daha çox kredit riski dərəcəsinə məruz qalır.

**Kredit riskinə maksimal məruzqalma həddi**

Təşkilatın kredit riskinə məruzqalma həddi əhəmiyyətli dərəcədə dəyişir və həm fərdi risklərdən, həm də ümumi bazar iqtisadiyyatı risklərindən asılıdır.

Aşağıdakı cədvəldə balans hesabatı, eləcə də balansdan kənar hesabatda əks etdirilən maliyyə aktivləri ilə bağlı kredit riskinə maksimal məruzqalma həddi göstərilir. Maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilən maliyyə aktivləri halında kredit riskinə maksimal məruzqalma həddi həmin aktivlərin hər hansı əvəzləşdirmədən və girov sövdələşməsindən qabaq balans dəyərinə bərabərdir. Təşkilatın şərti öhdəlikləri və kreditin ayrılması ilə bağlı öhdəlik üzrə kredit riskinə maksimal məruzqalma həddi isə, qarşı tərəfin öhdəliklərini yerinə yetirmədiyi təqdirdə həmin alətlərin müqavilə üzrə məbləğlərindən ibarət olur ki, bu halda da qarşı iddialar, girov və təminatlar dəyərini itirir.

| | **Riskə maksimal məruzqalma həddi** | **Qoyulmuş girov** | **Xalis məruzqalma həddi** |
|---|---|---|---|
| **31 dekabr 2013-cü il** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13,495 | - | 13,495 |
| Banklardakı müddətli depozitlər | 3,959 | - | 3,959 |
| Müştərilərə verilmiş kreditlər | 160,830 | 160,830 | - |
| Digər maliyyə aktivləri | 161 | - | 161 |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | 160 | - | 160 |
| **31 dekabr 2012-ci il** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,224 | - | 7,224 |
| Banklardakı müddətli depozitlər | 2,634 | - | 2,634 |
| Müştərilərə verilmiş kreditlər | 116,561 | 116,561 | - |
| Digər maliyyə aktivləri | 100 | - | 100 |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | 153 | - | 153 |

Balansdankənar risk

Təşkilat balans uçotu halında olduğu kimi, əsas etibarlı ilə, balansdan kənar müddəalar halında da risklərin idarə edilməsi üzrə eyni siyasətləri tətbiq edir. Kreditlərin ayrılmasına öhdəliklər halında isə, həmçinin kredit və avanslar halında olduğu kimi, müştərilər və qarşı tərəflər ilə bağlı eyni kredit riskinin idarə edilməsi siyasətləri tətbiq olunur. Girov qarşı tərəfin imkanları və əməliyyatın mahiyyətindən asılı olaraq tələb edilə bilər.

**Coğrafi cəmləşmə**

aktiv və Öhdəliklərin İdarə Edilməsi Komitəsi (AÖİK) qanunvericilik və qanuni tənzimləmə arenasında müşahidə olunan risklərə nəzarət edir və onların Təşkilatın fəaliyyətinə təsirini qiymətləndirir. Belə yanaşma Təşkilata Azərbaycan Respublikasının investisiya mühitindəki dəyişikliklərdən yaranan itkiləri minimuma endirmək imkanı yaradır.

Aktiv və öhdəliklərin coğrafi cəmləşməsi aşağıda göstərilir:

| | **Azərbaycan Respublikası** | **İƏİT ölkələri** | **31 dekabr 2013-cü il Cəmi** |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 13,495 | - | 13,495 |
| Banklardakı müddətli depozitlər | 3,959 | - | 3,959 |
| Müştərilərə verilmiş kreditlər | 160,830 | - | 160,830 |
| Digər maliyyə aktivləri | 51 | 110 | 161 |
| CƏMI MALİYYƏ AKTIVLƏRI | **178,335** | **110** | **178,445** |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd olunmuş maliyyə öhdəlikləri | - | 990 | 990 |
| Digər borc alınmış vəsaitlər | 14,250 | 124,337 | 138,587 |
| Digər maliyyə öhdəlikləri | 1,456 | 1,936 | 3,392 |
| Subordinasiyalı borc | - | 5,577 | 5,577 |
| CƏMI MALİYYƏ ÖHDƏLİKLƏRİ | **15,706** | **132,840** | **148,546** |
| **XALİS MÖVQE** | **162,629** | **(132,730)** | |

| | **Azərbaycan Respublikası** | **İƏİT ölkələri** | **31 dekabr 2012-ci il Cəmi** |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,224 | - | 7,224 |
| Banklardakı müddətli depozitlər | 2,634 | - | 2,634 |
| Müştərilərə verilmiş kreditlər | 116,561 | - | 116,561 |
| Digər maliyyə aktivləri | - | 100 | 100 |
| CƏMI MALİYYƏ AKTIVLƏRI | 126,419 | 100 | 126,519 |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd olunmuş maliyyə öhdəlikləri | - | 79 | 79 |
| Digər borc alınmış vəsaitlər | - | 95,370 | 95,370 |
| Digər maliyyə öhdəlikələri | 1,291 | 1,339 | 2,630 |
| Subordinasiyalı borc | - | 5,572 | 5,572 |
| CƏMI MALİYYƏ ÖHDƏLİKLƏRİ | 1,291 | 102,360 | 103,651 |
| **XALİS MÖVQE** | **125,128** | **(102,260)** | |

**Girov**

Tələb olunan girovun məbləği və növü qarşı tərəf ilə bağlı kredit riskinin qiymətləndirilməsindən asılı olaraq müəyyənləşdirilir. Girov növlərinin qəbul edilə bilməsi və qiymətləndirmə parametrlərinə dair qaydalar tətbiq olunur.

Fiziki şəxslərə kreditlərin verilməsi üçün komissiyalar daşınmaz əmlak, mal-material ehtiyatları və şəxsi zəmanətlər kimi qəbul edilmiş əsas girov növlərinə hesablanır.

Rəhbərlik girovun bazar dəyərini nəzarətdə saxlayır, baza sazişinə əsasən əlavə girov tələb edir, habelə dəyərsizləşmə zərəri üçün ehtiyatın müvafiq məbləğdə olduğunu təhlil etdiyi müddətdə aldığı girovun bazar qiymətlərinə nəzarət edir.

Aşağıdakı cədvəldə Təşkilatın saxladığı vaxtı keçməmiş və dəyərsizləşməmiş maliyyə aktivlərinin kredit reytinqləri təhlil edilir:

| **31 dekabr 2013-cü il** | **BB** | **B+** | **Reytinqsiz** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 9,720 | 3,620 | 155 | **13,495** |
| Banklardakı müddətli depozitlər | 1,582 | - | 2,377 | **3,959** |
| Müştərilərə verilmiş kreditlər | - | - | 160,830 | **160,830** |
| Digər maliyyə aktivləri | - | - | 161 | **161** |

| **31 dekabr 2012-ci il** | **BB** | **B+** | **Reytinqsiz** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,224 | - | - | **7,224** |
| Banklardakı müddətli depozitlər | 2,634 | - | - | **2,634** |
| Müştərilərə verilmiş kreditlər | - | - | 116,561 | **116,561** |
| Digər maliyyə aktivləri | - | - | 100 | **100** |

Təşkilat beynəlxalq agentliklər tərəfindən reytinq dərəcəsi müəyyən edilməmiş qarşı tərəflərlə bir çox sövdələşmələr bağlayır. Təşkilat qarşı tərəflərin beynəlxalq reytinq agentliklərinin təqdim etdiyi reytinq göstəriciləri ilə müqayisə oluna biləcək səviyyədə reytinq dərəcələrini müəyyən etməyə imkan yaradan daxili modellərini işləyib hazırlamışdır.

Borcalanların qiymətləndirilməsi metodologiyası aşağıdakı meyarlara əsaslanır: təhsil, məşğuliyyəti, maliyyə vəziyyəti, kredit tarixçəsi, borcalanın sahib olduğu mülkiyyət. Əldə olunmuş məlumat əsasında kreditin ən yüksək həddi hesablanır. Kreditin ən yüksək həddi borcalana borc təzyiqi əmsalı ilə hesablanır.

Müştərilərə verilmiş kreditlərdən başqa maliyyə aktivləri Fitch, Standard & Poor's və Moody's kimi beynəlxalq reqtinq agentlikləri tərəfindən buraxılmış cari kredit reytinqləri əsasında dərəcələrə bölünür. AAA ən yüksək mümkün reytinq dərəcəsi hesab edilir. İnvestisiya dərəcəli maliyyə aktivlərinin reytinqi BB-dan BBB-ya kimi dəyişir. Reytinqi BBB-dan aşağı olan maliyyə aktivləri qeyri-investisiya dərəcəli aktiv kimi təsnifləşdirilir.

Aşağıdakı cədvəllərdə müştərilərə verilən ödəmə müddəti keçmiş, lakin dəyərsizləşməmiş kreditlərin təhlili göstərilmişdir:

| **Kateqoriya** | **Ödənişi 1 ayadək gecikdirilmiş** | **Cəmi 31 dekabr 2013-cü il** |
|---|---|---|
| Vaxtı keçmiş lakin dəyərsizləşməmiş kreditlər | 539 | 539 |

| Kateqoriya | Ödənişi 1 ayadək gecikdirilmiş | Cəmi 31 dekabr 2012-ci il |
|---|---|---|
| Vaxtı keçmiş lakin dəyərsizləşməmiş kreditlər | 234 | 234 |

### Yenidən razılaşdırılmış kreditlər və avanslar

Ümumiyyətlə kreditlər və avanslar müştəri ilə davamlı əlaqələrin bir hissəsi kimi və ya borcalanın maliyyə vəziyyətindəki mənfi dəyişikliklərə cavab olaraq yenidən razılaşdırılır. Sonuncu halda, yenidən razılaşdırma ödəniş tarixinin və ya geri ödəmə planlarının dəyişməsi ilə nəticələnə bilər. Bu aktivin vaxtı keçmiş qalması faiz və əsas məbləğ üzrə yenidən razılaşdırılmış ödənişlər aktivin ilkin balans dəyərini bərpa edə bilmədiyi halda onların ayrı-ayrılıqda dəyərsizləşməsi ilə nəticələnəcək. Digər hallarda, yenidən razılaşdırma yeni müqaviləyə gətirib çıxara bilər ki, bu da artıq yeni kredit hesab olunur.

Şərtləri yenidən razılaşdırılmış maliyyə aktivlərinin növləri üzrə balans dəyəri

Aşağıdakı cədvəldə yenidən razılaşdırılmış maliyyə aktivlərinin növlər üzrə balans dəyərləri əks olunub:

| Maliyyə aktivlərinin növü | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 511 | 185 |

Təşkilat ölkə daxilində müştərilərə verilmiş kreditlərlə bağlı kredit riskinə məruz qalır. Təşkilatda müəyyən olunan kredit hədləri və kredit ödəmə qabiliyyətini əhatə edən riskin idarə edilməsi qaydalarının pozulmamasını təmin etmək məqsədilə bu riskin mütəmadi monitorinqi aparılır.

### Likvidlik riski

#### *Likvidlik riskinin idarə edilməsi*

Likvidlik riski ödəniş vaxtı çatdıqda maliyyə alətləri ilə bağlı maliyyə öhdəliklərinin yerinə yetirilməsi üçün kifayət qədər vəsaitlərin mövcud olması ilə bağlı riskdir.

AÖİK (aktivlər və Öhdəliklər İdarə edilməsi Komitəsi) belə növ riskləri ödəniş müddətinin təhlili yolu ilə nəzarətdə saxlamaqla Təşkilatın növbəti maliyyə ili üçün strategiyasını müəyyənləşdirir.

Likvidlik riskini idarə etmək üçün Təşkilat aktivlər/öhdəliklərin idarə olunması prosesinin bir hissəsi olaraq müştərilər və Təşkilatın əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitləri hərəkətinin gündəlik monitorinqini həyata keçirir.

İdarə Heyəti digər borcların minimum səviyyəsi ilə bağlı tələbin qarşılanması üçün ödəniş müddəti çatmış vəsaitlər üzrə minimal məbləğ həddlərini və belə tələblər gözlənilməz məbləğlərdə irəli sürüldüyü təqdirdə onların təmin edilməsi üçün istifadəyə hazır olmalı digər borc vəsaitlərinin minimal məbləğinə qarşı məhdudiyyətlər müəyyənləşdirir.

Likvidlik riskinin və faiz dərəcəsi riskinin təhlili aşağıdakı cədvəldə təqdim olunur. Aşağıda təqdim olunan məlumat Təşkilatın əsas idarə heyətinə verilmiş daxili məlumatlara əsaslanır.

| | Effektiv faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 6 aya qədər | 6 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | 31 dekabr 2013-cü il cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTIVLƏRI** | | | | | | | |
| Faiz dərəcəsi alətləri | | | | | | | |
| Banklardakı müddətli depozitlər | 8.30% | - | - | 1,569 | 2,390 | - | 3,959 |
| Müştərilərə verilmiş kreditlər | 32.70% | 18,146 | 74,553 | 50,339 | 17,792 | - | 160,830 |
| Cəmi faiz hesablanan maliyyə aktivləri | | 18,146 | 74,553 | 51,908 | 20,182 | - | 164,789 |
| Faiz hesablanmayan maliyyə aktivləri | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 13,495 | - | - | - | - | 13,495 |
| Digər maliyyə aktivləri | | - | 161 | - | - | - | 161 |
| Cəmi faiz hesablanmayan maliyyə aktivləri | | 13,495 | 161 | - | - | - | 13,656 |
| **Cəmi maliyyə aktivləri** | | **31,641** | **74,714** | **51,908** | **20,182** | **-** | **178,445** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ VƏ TƏƏHHÜDLƏR** | | | | | | | |
| Faiz dərəcəsi alətləri | | | | | | | |
| Digər borc alınmış vəsaitlər | 9.54% | 3,785 | 24,419 | 13,762 | 92,705 | 3,916 | 138,587 |
| Subordinasiyalı borclar | 12.54% | - | - | 91 | 5,486 | - | 5,577 |
| Cəmi faiz hesablanan maliyyə öhdəlikləri | | 3,785 | 24,419 | 13,853 | 98,191 | 3,916 | 144,164 |
| Faiz hesablanmayan maliyyə öhdəlikləri və təəhhüdlər | | | | | | | |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri | | 170 | - | 212 | 608 | - | 990 |
| Digər maliyyə öhdəlikləri | | 807 | 1,936 | 484 | 165 | - | 3,392 |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | | - | - | - | 160 | - | 160 |
| Cəmi faiz hesablanmayan maliyyə öhdəlikləri və təəhhüdlər | | 977 | 1,936 | 696 | 933 | - | 4,542 |
| **Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər** | | **4,762** | **26,355** | **14,549** | **99,124** | **3,916** | **148,706** |
| Faiz dərəcəsinin həssaslıq kəsiri | | 14,361 | 50,134 | 38,055 | (78,009) | (3,916) | |
| **Kumulyativ faiz dərəcəsinin həssaslıq kəsiri** | | **14,361** | **64,495** | **102,550** | **24,541** | **20,625** | |
| Likvidlik kəsiri | | 26,879 | 48,359 | 37,359 | (78,942) | (3,916) | |
| **Kumulyativ likvidlik kəsiri** | | **26,879** | **75,238** | **112,597** | **33,655** | **29,739** | |

| | Effektiv faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 6 aya qədər | 6 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 31 dekabr 2012-ci il cəmi |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTIVLƏRİ** | | | | | | |
| Faiz dərəcəsi alətləri | | | | | | |
| Banklardakı müddətli depozitlər | 9.42% | - | - | 2,634 | - | 2,634 |
| Müştərilərə verilmiş kreditlər | 33.59% | 15,006 | 58,779 | 35,104 | 7,672 | 116,561 |
| Cəmi faiz hesablanan maliyyə aktivləri | | 15,006 | 58,779 | 37,738 | 7,672 | 119,195 |
| Cəmi faiz hesablanmayan maliyyə aktivləri | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 7,224 | - | - | - | 7,224 |
| Digər maliyyə aktivləri | | - | 100 | - | - | 100 |
| Cəmi faiz hesablanmayan maliyyə aktivləri | | 7,224 | 100 | - | - | 7,324 |
| **Cəmi maliyyə aktivləri** | | **22,230** | **58,879** | **37,738** | **7,672** | **126,519** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ VƏ TƏƏHHÜDLƏR** | | | | | | |
| Faiz dərəcəsi alətləri | | | | | | |
| Digər borc alınmış vəsaitlər | 8.19% | 9,610 | 13,305 | 25,504 | 46,951 | 95,370 |
| Subordinasiyalı borclar | 12.54% | - | 77 | - | 5,495 | 5,572 |
| Cəmi faiz hesablanan maliyyə öhdəlikləri | | 9,610 | 13,382 | 25,504 | 52,446 | 100,942 |
| Faiz hesablanmayan maliyyə öhdəlikləri və təəhhüdlər | | | | | | |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri | | - | - | - | 79 | 79 |
| Digər maliyyə öhdəlikləri | | 585 | 1,555 | 309 | 181 | 2,630 |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | | - | 153 | - | - | 153 |
| Cəmi faiz hesablanmayan maliyyə öhdəlikləri və təəhhüdlər | | 585 | 1,708 | 309 | 260 | 2,862 |
| **Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər** | | **10,195** | **15,090** | **25,813** | **52,706** | **103,804** |
| Faiz dərəcəsinin həssaslıq kəsiri | | 5,396 | 45,397 | 12,234 | (44,774) | |
| **Kumulyativ faiz dərəcəsinin həssaslıq kəsiri** | | **5,396** | **50,793** | **63,027** | **18,253** | |
| Likvidlik kəsiri | | 12,035 | 43,789 | 11,925 | (45,034) | |
| **Kumulyativ likvidlik kəsiri** | | **12,035** | **55,824** | **67,749** | **22,715** | |

Yuxarıdakı cədvəldə ödəmə müddətləri müqavilə üzrə ödəmə müddətləri ilə uyğundur.

Aşağıdakı cədvəllərdə Təşkilatın geri ödəniş müddətləri razılaşdırılmış maliyyə öhdəliklərinin müqavilə üzrə qalan ödəniş müddətlərinin təfərrüatları göstərilir. Cədvəllər Təşkilatdan ödəniş etməsinin tələb oluna biləcəyi ən erkən tarix əsasında maliyyə öhdəliklərinin diskontlaşdırılmamış pul hərəkəti üzrə tərtib edilmişdir. Cədvəllərdə həm faiz, həm da əsas pul hərəkəti məbləğləri göstərilir. Faiz daxilolmaları dəyişən faiz dərəcələr ilə olduqda, diskontlaşdırılmamış məbləğlər hesabat dövrünün sonunda faiz dərəcəsi sxemi əsasında müəyyən olunur. Müqavilə üzrə ödəniş müddəti Təşkilatdan ödəniş etməsinin tələb oluna biləcəyi ən erkən tarixə əsasən müəyyən olunur.

| | **1 aya qədər** | **1 aydan 6 aya qədər** | **6 aydan 1 ilə qədər** | **1 ildən 5 ilə qədər** | **5 ildən artıq** | **31 dekabr 2013 Cəmi** |
|---|---|---|---|---|---|---|
| Digər borc alınmış vəsaitlər | 3,557 | 21,967 | 13,547 | 75,979 | 3,078 | 118,128 |
| Subordinasiyalı borclar | 45 | 225 | 270 | 5,363 | - | 5,903 |
| | **3,602** | **22,192** | **13,817** | **81,342** | **3,078** | **124,031** |
| Faiz hesablanmayan alətlər | | | | | | |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri | 170 | - | 212 | 608 | - | 990 |
| Digər maliyyə öhdəlikləri | 807 | 1,936 | 484 | 165 | - | 3,392 |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | - | - | - | 160 | - | 160 |
| Cəmi faiz hesablanmayan maliyyə öhdəlikləri və təəhhüdlər | **977** | **1,936** | **696** | **933** | **-** | **4,542** |
| Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər | **4,579** | **24,128** | **14,513** | **82,275** | **3,078** | **128,573** |

| | **1 aya qədər** | **1 aydan 6 aya qədər** | **6 aydan 1 ilə qədər** | **1 ildən 5 ilə qədər** | **5 ildən artıq** | **31 dekabr 2012 Cəmi** |
|---|---|---|---|---|---|---|
| Digər borc alınmış vəsaitlər | 10,192 | 16,216 | 27,863 | 51,682 | - | 105,953 |
| Subordinasiyalı borclar | 57 | 364 | 345 | 7,447 | - | 8,213 |
| | 10,249 | 16,580 | 28,208 | 59,129 | - | 114,166 |
| Faiz hesablanmayan alətlər | | | | | | |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri | - | - | - | 79 | - | 79 |
| Digər maliyyə öhdəlikləri | 585 | 1,555 | 309 | 181 | - | 2,630 |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | - | 153 | - | - | - | 153 |
| Cəmi faiz heablanmayan maliyyə öhdəlikləri və təəhhüdlər | 585 | 1,708 | 309 | 260 | - | 2,862 |
| Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər | 10,834 | 18,288 | 28,517 | 59,389 | - | 117,028 |

**Bazar riski**

Bazar riski bazardakı qiymət və məzənnələr səviyyəsində dəyişikliklərin yaxud onların mütərəddidliyinin Təşkilatın gəlir və ya kapitalına yaxud da onun biznes məqsədlərinin reallaşdırılması imkanlarına mənfi təsir göstərməsi riskidir.

Bazar riski faiz dərəcəsi riski kimi, valyuta riski, kredit spredləri, əmtəə qiymətləri və qiymətli kağızların qiyməti aiddir. Təşkilatın ölçmə üsullarında və ya üzləşdiyi riskdə yaxud da qeyd olunan risklərin idarə edildiyi və ölçüldüyü tərzdə heç bir dəyişikliklər baş verməmişdir.

Təşkilat daxilindəki müəssisələr həm sabit, həm də dəyişkən ("üzən") faiz dərəcələri ilə borc vəsaitlər cəlb etdiyindən Təşkilat faiz riskləri ilə üzləşir. Risk Təşkilat tərəfindən sabit və üzən faiz dərəcələrinin müvafiq şəkildə vəhdəti yaradılmaqla idarə olunur.

AÖİK həmçinin Təşkilatı müsbət faiz marjası ilə təmin edən onun faiz dərəcəsi mövqeyini uyğunlaşdırmaqla faiz riskini və bazar risklərini idarə edir. Maliyyə şöbəsi Təşkilatın cari maliyyə nəticələrinin monitorinqini həyata keçirir, Təşkilatın faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və mənfəətinə təsirini qiymətləndirir.

Təşkilatın bəzi maliyyə öhdəlikləri ya dəyişkən faiz dərəcəsi daşıyır, ya da ki, kreditorun seçimi ilə faiz dərəcələrinin dəyişilə bilməsini nəzərdə tutan maddə daxil edilir. Təşkilat faiz dərəcəsi marjasını nəzarətdə saxlayır və bu səbəbdən əhəmiyyətli faiz dərəcəsi riskinə və ya sonrakı pul vəsaitlərinin hərəkəti riskinə məruz qalmadığını hesab edir.

**Faiz dərəcəsinə qarşı həssaslıq**

Təşkilat bazar mühitindəki mənfi dəyişikliklərdən irəli gələ biləcək potensial itkiləri dövrü olaraq hesablamaqla ədalətli dəyərin faiz dərəcəsi riskini idarə edir. Maliyyə Departamenti Təşkilatın cari maliyyə nəticələrinin monitorinqini həyata keçirir, Təşkilatın ədalətli dəyərin faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və onun gəlirliyinə təsirini hesablayır. Aşağıda göstərilən həssaslıq təhlili hesabat dövrünün sonunda həm derivativ, həm də qeyri-derivativ alətlər üzrə faiz riskinə məruzqalma əsasında müəyyən edilmişdir. Üzən faiz dərəcəsi daşıyan öhdəliklər üzrə təhlil dövrün sonunda öhdəliyin ödənilməmiş məbləğinin bütün il üzrə ödənilmədiyini hesab etməklə həyata keçirilir. Təşkilat daxilində faiz dərəcəsi riski barədə əsas idarə heyətinə məlumat verildikdə 50 baza dərəcəsində artım və ya azalmaya istinad edilir ki, bu da rəhbərliyin faiz dərəcələrində mümkün dəyişikliklərin qiymətləndirilməsini əks etdirir.

Faizlərin 50 baza dərəcəsində artdığı/azaldığı və bütün digər dəyişən göstəricilər sabit saxlanıldığı təqdirdə, Təşkilatın 31 dekabr 2013 və 2012-ci il tarixinə bitən il üzrə mənfəəti müvafiq olaraq 103 min AZN və 91 min AZN məbləğində artır.

**Valyuta riski**

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklər baş verməsi səbəbindən maliyyə alətlərinin dəyəri qeyri-müəyyən olacağı ilə bağlı riskdir. Təşkilat üstünlük təşkil edən xarici valyuta mübadiləsi məzənnəsində dəyişikliyin baş verməsi nəticəsində onun maliyyə vəziyyəti və vəsaitlər hərəkətinin təsirə məruz qala biləcəyi halı ilə üzləşir

AÖİK təxmin edilən AZN məzənnəsinin dəyişməsi və digər makroiqtisadi göstəricilər əsasında açıq valyuta mövqeyinin idarəedilməsi yolu ilə valyuta riskinə nəzarət edir ki, bu da Təşkilata valyutaların milli valyutaya qarşı mübadilə məzənnələrinin dəyişkənliyindən irəli gələn əhəmiyyətli zərərin azaldılması üçün imkan yaradır.

Təşkilatın xarici valyuta məzənnəsindəki dəyişiklik riskinə məruzqalma mövqeyi aşağıda göstərilir:

| | ABŞ Dollar 1 ABŞ Dollar = 0.7845 AZN | AZN | Avro Avro 1 = 0.9276 AZN | 31 dekabr 2013-cü i Cəmi |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,833 | 5,660 | 2 | 13,495 |
| Banklardakı müddətli depozitlər | 3,959 | - | - | 3,959 |
| Müştərilərə verilmiş kreditlər | 33,347 | 127,483 | - | 160,830 |
| Digər maliyyə aktivləri | 161 | - | - | 161 |
| **Cəmi maliyyə aktivləri** | **45,300** | **133,143** | **2** | **178,445** |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri | - | 990 | - | 990 |
| Digər borc alınmış vəsaitlər | 57,391 | 81,196 | - | 138,587 |
| Digər maliyyə öhdəlikləri | 1,684 | 1,710 | - | 3,394 |
| Subordinasiyalı borc | 5,577 | - | - | 5,577 |
| **Cəmi maliyyə öhdəlikləri** | **64,652** | **83,896** | **-** | **148,548** |
| **AÇIQ BALANS MÖVQEYİ** | **(19,352)** | **49,247** | **2** | **29,897** |
| **Derivativ maliyyə alətləri** | | | | |
| - xarici valyuta üzrə forvard müqavilələri | 7,845 | (7,845) | - | - |
| **DERİVATİV MALİYYƏ ALƏTLƏRİ ÜZRƏ AÇIQ MÖVQE** | 7,845 | (7,845) | - | - |
| **AÇIQ MÖVQE** | **(11,507)** | **41,402** | **2** | **29,897** |

| | ABŞ Dollar 1 ABŞ Dollar = 0.785 AZN | AZN | Avro 1 Avro = 1.0377 AZN | 31 dekabr 2012-ci i Cəmi |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 6,398 | 824 | 2 | 7,224 |
| Banklardakı müddətli depozitlər | 439 | 2,196 | - | 2,635 |
| Müştərilərə verilmiş kreditlər | 35,028 | 81,532 | - | 116,560 |
| Digər maliyyə aktivləri | - | 100 | - | 100 |
| **Cəmi maliyyə aktivləri** | **41,865** | **84,652** | **2** | **126,519** |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri | - | 79 | - | 79 |
| Digər borc alınmış vəsaitlər | 47,704 | 47,667 | - | 95,371 |
| Digər maliyyə öhdəlikləri | 652 | 1,977 | - | 2,629 |
| Subordinasiyalı borc | 5,572 | - | - | 5,572 |
| **Cəmi maliyyə öhdəlikləri** | **53,928** | **49,723** | **-** | **103,651** |
| **AÇIQ MÖVQE** | **(12,063)** | **34,929** | **2** | **22,868** |

### *Valyuta riskinə qarşı həssaslıq*

Aşağıdakı cədvəldə 31 dekabr 2013 və 2012-ci il tarixlərinə Manatın müvafiq xarici valyutalara qarşı mübadilə məzənnəsinin 10% dərəcəsində artması və ya azalması halına qarşı Təşkilatın həssaslığını göstərən təfərrüatlar açıqlanır. Xarici valyuta riski Təşkilat daxilində əsas rəhbərlik heyətinə məruzə olunarkən 10 %-lik həssaslıq dərəcəsinə istinad edilir və bu dərəcə rəhbərliyin xarici valyuta məzənnələrində kifayət qədər mümkün dəyişikliklərin baş verməsinin qiymətləndirilməsini göstərir. Həssaslığın təhlilli yalnız xarici valyutada ifadə edilmiş qalıq monetar vəsaitləri ehtiva edir və xarici valyuta məzənnələrində 10%-lik dəyişiklik nəzərə alınmaqla onların dövrün sonundakı valyuta mövqeyinin bir valyutadan digərinə çevrilməsinə düzəliş edir. Həssaslıq təhlilinə xarici kreditlər eləcə də, Təşkilatla xarici əməliyyatlar üçün verilmiş kreditlər daxildir ki, burada kreditlər kreditorun və ya borcalanın əməliyyat valyutasından fərqli valyuta ilə ifadə olunur. Aşağıdakı müsbət rəqəmlər manatın müvafiq valyutaya qarşı 10% dərəcədə güclənməsi müqabilində mənfəət və digər kapital vəsaitlərində baş vermiş artımı göstərir. Manatın müvafiq valyutaya qarşı 10% dərəcədə zəifləyəcəyi təqdirdə mənfəət və digər kapital vəsaitləri müqayisəli təsirə məruz qala, aşağıdakı balans göstəriciləri isə mənfi rəqəmlərlə ifadə oluna bilərdi.

| | ABŞ dollarının təsiri 2013 | | Avronun təsiri 2013 | |
|---|---|---|---|---|
| Vergidən əvvəl mənfəət | 1,935 | (i) | - | (ii) |

| | ABŞ dollarının təsiri 2012 | | Avronun təsiri 2012 | |
|---|---|---|---|---|
| Vergidən əvvəl mənfəət | 500 | (i) | - | (ii) |

(i) Bu əsasən hesabat dövrünün sonunda Təşkilatın ABŞ dolları/AZN ilə ifadə olunmuş qalıq debitor və kreditor borclarının riskə məruz qalmasına şamil edilir.

(ii) Bu əsasən hesabat dövrünün sonunda Təşkilatın Avro ilə ifadə olunmuş qalıq kreditor borcların riskə məruzqalma halına şamil edilir.

Rəhbərlik hesab edir ki, həssaslığın təhlili aidiyyatı xarici valyuta mübadiləsi riskini səciyyələndirmir çünki, ilin sonuna olan itkilər riski il ərzindəki itkilər riskini əks etdirmir.

Forvard xarici valyuta müqavilələri

Təşkilatın xüsusi xarici valyuta ödənişlərini və daxilolmalarını əhatə edən forvard xarici valyuta müqavilələrinə daxilolma qaydaları vardır.

*Həssaslıq təhlili üzrə məhdudiyyətlər*

Yuxarıda qeyd olunan cədvəllər digər ehtimallar dəyişmədiyi halda əsas ehtimaldakı dəyişikliyin təsirini əks etdirir. Əslində, ehtimallar və digər amillər arasında qarşılıqlı əlaqə mövcuddur. O cümlədən qeyd etmək lazımdır ki, bu həssaslıqlar sabit deyil və iri yaxud xırda təsirlər bu nəticələrdən interpolyasiya və ya ekstrapolyasiya edilməməlidir.

Həssaslıq təhlili Təşkilatın aktivlərinin və öhdəliklərinin fəal şəkildə idarə edildiyini nəzərə almır. Bundan əlavə, Təşkilatın maliyyə vəziyyəti bazarda dəyişikliklər baş verdikdə dəyişə bilər. Məsələn, Təşkilatın maliyyə riskinin idarə edilməsi strategiyası bazardakı dəyişikliklərə qarşı həssaslığın idarə edilməsini nəzərdə tutur. Bazardakı dəyişikliklər müəyyən həddi keçdikdə Təşkilatın rəhbərliyi bəzi investisiyaları satmaq, investisiya portfelinin strukturunu dəyişdirmək və ya müəyyən sığortalayıcı addımlar atmaq kimi qərarlar həyata keçirə bilər. Nəticədə, aktivlər maliyyə vəziyyəti haqqında hesabatda bazar dəyəri ilə qiymətləndirildikdə fərziyyələrdəki dəyişikliklər öhdəliklərə heç bir təsir göstərməyə bilər. Belə hallarda aktivlər və öhdəliklər üçün müxtəlif qiymətləndirmə bazasından istifadə edilməsi səhmdar kapitalının dəyişməsinə gətirib çıxara bilər.

Yuxarıdakı həssaslıq təhlillərinin digər məhdudiyyətlərinə Təşkilatın yalnız dəqiqliklə proqnozlaşdırılması mümkün olmayan qısamüddətli bazar dəyişikliklərinə dair mövqeyini əks etdirən potensial riski nümayiş etdirmək üçün şərti (hipotetik) bazar dəyişikliklərindən istifadə olunması və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət edəcəyi ilə bağlı təxminlər daxildir.

**Qiymət riski olan məhsullar**

Təşkilat ümumi və xüsusi bazar dəyişiklikləri nəticəsində öz məhsulları üzrə qiymət riskinə məruz qalır.

Təşkilat qiymət riskini bazar şəraitindəki mənfi dəyişikliklərdən irəli gələn potensial itkiləri dövrü olaraq hesablamaqla və müvafiq zərər-həddi məhdudiyyətlərini, habelə marja və girov tələblərini müəyyənləşdirib saxlamaqla idarə edir. İstifadə edilməmiş kredit öhdəlikləri halında isə, Təşkilat belə öhdəliklərin ümumi məbləğinə bərabər həcmdə potensial zərərlə üzləşir. Lakin, ehtimal edilən zərər məbləği bundan azdır, çünki, öhdəliklərin əksəriyyəti kredit müqavilələrində göstərilən bəzi şərtlərdən asılıdır.

**Əməliyyat riski**

Əməliyyat riksi sistemdəki nasazlıq, əməliyyatçının səhvi, saxtakarlıq və digər xarici hadisələr nəticəsində yaranmış zərərdir. Nəzarətlər yerinə yetirilmədikdə, əməliyyat riskləri müəssisənin nüfuzuna xələl gətirə, hüquqi və ya inzibati nəticələrinə səbəb ola və ya maliyyə itkilərinə gətirib çıxara bilər. Təşkilat bütün əməliyyat risklərinin aradan qaldırılmasını gözləmir, lakin özünün nəzarət konsepsiyası ilə, habelə potensial risklərə nəzarət və onlara qarşı cavab tədbirləri görməklə bu riskləri idarə etməyə çalışır. Nəzarətlərə vəzifə bölgüsünün, sistemə çıxışın, təsdiqlənmə və üzləşdirmə prosedurlarının, heyətin təlimi və qiymətləndirmə proseslərinin səmərəli təşkili daxildir.

## 25. HESABAT TARİXİNDƏN SONRAKI HADİSƏLƏR

2014-cü ilin yanvar ayında Təşkilat 2013-cü ilin sentyabr ayında bağlanmış qiymətli kağızların alınması və satışı müqavilələri əsasında İsveçrə Mikromaliyyələşdirmə Fondu İdarəetmə təşkilatından 4,315 min AZN məbləğində vəsait almışdır. Vəsaitlər 2016-cı ilin noyabr ayında tam geri qaytarılacaq.

6 mart 2014-cü il tarixdə Təşkilat əvvəllər səhmdarlar tərəfindən kapitala əlavə edilmiş 2,907 min AZN məbləğində vəsaitləri qeydiyyata almışdır.